

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Meşəli: bir qərinə gözlədiyimiz ədalət




6

SƏS

№ 138 (6821)

5 avqust 2023-cü il.
Qiyməti 60 qəpik

## Tarixi ədalətin bərpası, "Şuşa Bəyannaməsi" və Qarabağ



8

İLHAM ƏLİYEV: "Azərbaycan və Türkiyə qardaşlığı təkcə regionda deyil, dünyada məlum bir faktdır"

# Bütün yollar Xəzərə aparır!




Mərkəzi Asiyanın bütün nəqliyyat marşrutları Azərbaycandan keçəcək

3

## "Mənim yaşadıqlarıma nəinki qadın, heç kişi belə dözməzdi"

Xocalıda əsir düşən Dürdanə Ağayeva



12

## AXCP yenidən parçalana bilər



13

"Qarabağdakı separatizmə xarici dəstək dayandırılmalıdır"
AXCP yenidən parçalana bilər



12

## Pulun var, "gələrəm"...

*Nə bilərdik ki, bir vaxtlar məşhur musiqili komediya filmimizdə - "O olmasın, bu olsun"da maraqla baxıb güldüyümüz "Pulun var, gələrəm" səhnəsi illər sonra həyat səhnəmizə çevrilib əvvəlki qəhqəhəmizi acı gülüşlə əvəzləyəcək... Belə isə buyurun, oxuyun.*



14

## "Neftçi" - "Beşiktaş" oyunu bu stadionda keçiriləcək



16



# Məğlub tərəf qalibin şərtlərini qəbul etmək məcburiyyətindədir

***Heç kəsə sirr deyil ki, Ermənistan dövləti 30 ilə yaxın bir müddətdə dünya ictimaiyyətinin gözü qarşısında öz təcavüzkar siyasətini həyata keçirib, Azərbaycan xalqı erməni millətçiləri tərəfindən soyqırımına və etnik təmizləmələrə məruz qalıb. Azərbaycan 2020-ci ildə, 44 günlük Vətən müharibəsindən sonra regionda yeni reallıqların yaradılmasında öz imkanlarını səfərbər edib və bu gün Cənubi Qafqazda davamlı sülhün təmin olunması, habelə postmüharibə dövrünün mükəmməl idarə olunması istiqamətində əməli fəaliyyət göstərir.***

## *PREZİDENT İLHAM ƏLİYEVİN “Euronews”a müsahibəsi “sülh danışıqları prosesi” üzərində qurulan oyunların mahiyyətini açdı*

Qazanılan Zəfər təkcə silahın gücü deyil, Prezidentin, millətin liderinin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun məntiqi nəticəsi idi. Və Prezident İlham Əliyevin əməli addımları, dünyanın nüfuzlu telekanallarına müsahibələrində Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə onların başa düşəcəyi dildə çox böyük qətiyyətlə çatdırması, əlbəttə ki, qlobal auditoriyanın diqqətindən kənarda qalmır.

### PREZİDENT İLHAM ƏLİYEVİN AVROPANIN ƏN BÖYÜK TELEKANALLARINDAN OLAN, ÇOXMİLYONLUQ AUDİTORİYAYA SAHİB “EURONEWS”A VERDİYİ MÜSAHİBƏ İSTƏR ERMƏNİSTAN RƏHBƏRLİYİ, İSTƏRSƏ DƏ QƏRB DÖVLƏTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ TƏRƏFİNDƏN SƏSLƏNDİRİLƏN QEYRİ-ADEKVAT AÇIQLAMALARA TUTARLI CAVABDIR

Bəli, Prezident İlham Əliyevin “Euronews” televiziyasında yayımlanan müsahibəsi həm informasiya yükü, həm də yeni mesajlar baxımından zəngin olmaqla yanaşı, həm də istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavabdır. Prezident qonşularımızla formalaşan münasibətlərə də toxunaraq hələ ki, yek və ilk olaraq imzalanmış atəşkəs sazişinin, yəni, 2020-ci il 10 noyabr tarixli Bəyanatın vasitəçisi Rusiya Federasiyasının Cənubi Qafqazda sülhün təmin olunmasında rolundan danışıb, məhz Rusiya-Ukrayna müharibəsindən sonra Birləşmiş Ştatların və Avropa İttifaqının fəallaşdığını qeyd edib. Və iki ölkə arasında razılaşmanın əldə edilməsinə, sülh müqaviləsinin imzalanmasına mane olan amilləri göstərib. Ermənistanın hərbi-siyasi rəhbərliyinin manevrləri, xarici güc mərkəzlərinin prosesə neqativ təsirləri detallı şəkildə təsvir edilir. Həmçinin beynəlxalq təşkilatların Qarabağ münaqişəsinin kökündə dayanan “erməni separatizmi”nə ikili standartlarla yanaşmaları tənqid olunur. İkili yanaşmanı təsdiq edən sübutlar göstərilir.Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə onlar Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar. Çünki .

### AZƏRBAYCAN SÜLHƏ, SÜLH DANIŞIQLARINA SADİQDİR

Cənab Prezidentin “Euronews” televiziyasına müsahibəsində konkret beynəlxalq hüquqa əsaslanaraq, Azərbaycanın Konstitusiyasına, xalqın arzu və istəyinə, iradəsinə uyğun olaraq səsləndirdiyi fikirlər, irəli sürdüyü tezislər bu gün dünyada müzakirə olunur. Müsahibədə Azərbaycanın maraqları ortaya qoyuldu və dünya ictimaiyyətinin diqqətinə çatdırıldı ki, Azərbaycan haqqında yalan informasiya yayılmasın. Laçın yolu ilə bağlı məsələlər bundan əvvəl Avropa İttifaqında müzakirə olunanda razılığa gəlindi ki, Qarabağa humanitar yardım Ağdam yolu ilə daşınsın. Bununla bağlı bütün infrastruktur, yol var, şərait yaradılıb. Azərbaycan da təsdiq edir ki, ermənilər Ağdam yolundan maneəsiz keçə bilərlər. Cənab Prezident gömrük postunu və buradan 2 mindən artıq erməninin keçdiyini də diqqətə çatdırdı. Beynəxalq Qırmızı Xaç Komitəsinin qaçaqmalçılıqla məşğul olması da dünya ictimaiyyətinin nəzərinə çatdırıldı ki, Komitə öz funksiyasının əvəzinə tamamən başqa işlərlə məşğul olur. Bir sözlə, Azərbaycan sülhə, sülh danışıqlarına sadiqdir.Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü təsdiq olundu ki, 86,6 kvadratkilometr ərazi Azərbaycanın, 29,9 isə Ermənistanındır. Bu, artıq sərhədlərin müəyyənləşdirilməsi üçün razılığa gəlinən məsələdir. Sovet İttifaqı dağılanda bununla bağlı qərar qəbul olunub, sərhədlər bu cür tanınıb. Sülh müqaviləsi də buna uyğun imzalanmalıdır.

Əfsus ki, qeyri-qanuni silahlı dəstələrin hələ də Qarabağda olması, təxribat törətməsi, Azəbaycan sərhədlərinə atəş açılması - bütün bunlar sülhə ciddi problem yaradır. Baxmayaraq ki, Baş nazirlərin müavinləri səviyyəsində danışıqlar gedir. İcmalar arasında da bu yaxınlarda danışıqlar olacaq. Qarabağda yaşayan ermənilərlə növbəti görüş olmalıdır. “Euronews” telekanalına müsahbəsində Prezident İlham Əliyev Ermənistandakı ermənilərə müsaj ünvanlayaraq bildirb ki, biz onların dövləti ilə sülh istəyirik: «Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik. Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu liderlər onlara daim yalan danışıblar. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar.

Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm.Dövlətimizin başçısı müsahibəsində onu da bildirib ki, sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Çünki Azərbaycan öhdəliklərinə sadiq ölkədir. bu gün 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından üç ilə yaxın bir vaxtın keçməsinə baxmayaraq, Ermənistan tərəfi ilə sülh sazişinin imzalanmasının uzanması artıq beynəlxalq münasibətlər, o cümlədən qlobal informasiya təbliğatında Azərbaycanın ardıcıl və daha böyük işlər görməsini diktə edir.Bir sözlə, Prezident İlham Əliyev “Euronews”a verdiyi müsahibə son zamanlarda istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavab olub. Dövlətimizin başçısı bu platformadan məharətlə yararlanaraq həm bu gün “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin Azərbaycanın nəzarəti altında fəaliyyətinə aydınlıq gətirib, həm də Qarabağda yaşayan ermənilərin blokadaya alınması ilə bağlı yalanları ifşa edib, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin, Azərbaycanın atdığı hər bir addımın bütün regionda, dünyada sülhün əldə olunmasına xidmət etdiyini bir daha bildirib.Azərbaycan Prezidenti İlham Əliyev onu da xatırlatdı ki, Ermənistan rəhbərliyi indiyədək digər öhdəliklərinin icrasından yayınmağa çalışsa da, sonda onları yerinə yetirməyə məcbur olub.

Bu həm də ona işarədir ki, Ermənistan bu öhdəliklərini də yerinə yetirməyə məcbur olacaq.Prezident İlham Əliyev vasitəçilikdə iştirakla bağlı bir-biri ilə rəqabət aparan, özünün iştirak etmədiyi formatı qıcıqla, bəzən isə yersiz aqressiya ilə qarşılayan dairələrə bu mühüm mesajı da verdi: “Əsas məsələ odur ki, istər Moskva, istərsə də Vaşinqton olsun, hər iki vasitəçi danışıqlar üçün şərait yaradır. Bu, üçtərəfli danışıqlar deyil, bu, ikitərəfli danışıqlardır”.Heç şübhəsiz ki, Azərbaycan Prezidentinin bu mesajı qardaş Türkiyəni vasitəçilik prosesində tərəf kimi görməyən və ya görmək istəməyən dairələrə ən tutarlı cavab idi. Ermənistan rəhbərliyi də bu mesajdan adekvat nəticə çıxararaq nəhayət bilməlidir ki, hansısa havadarına bel bağlamaq, danışıqlar masasında onların köməkliyi ilə “əlinin” güclənəcəyinə ümid etmək mənasız vaxt itkisidir. Əgər Ermənistan həqiqətən sülh istəyirsə, öhdəliklərinə tam şəkildə əməl etməli və ikitərəfli danışıqlar formatında Azərbaycanla razılığa gəlməlidir. Ermənistan rəhbərliyi sözlə ifadə etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü, Qarabağ və Şərqi Zəngəzur üzərindəki suverenliyini rəsmi sənəddə də tanımalıdır. Sülhün, regionda dinc birgəyaşayışın bu şərtlərdən kənarda alternativi yoxdur.

***RƏFİQƏ KAMALQIZI***

# Bütün yollar Xəzərə aparır!

## *Mərkəzi Asiyanın bütün nəqliyyat marşrutları Azərbaycandan keçəcək*





***Azərbaycanın loqistik imkanları hər gün artmaqda, genişlənməkdədir. Qurulan bütün infrastruktur ölkəmizin münbit coğrafi ərazidə yerləşməsinə uyğunlaşdırılıb. Yəni görülən işlər xarici faktorlarla, rentabellilik əmsalları ilə eyniləşdirilib. Şərq-Qərb, Şimal-Cənub marşrutları barədə danışırıqsa, Orta dəhliz terminini işlədiriksə, deməli buna təkcə Azərbaycanın yox, bütün regional və qeyri-regional dövlətlərin ehtiyacı yaranıb. Azərbaycanın etibarlı tərəfdaş olması da bu məsələlərin reallaşmasında mühüm rol oynayıb.***






RAKURS

Orta Asiya ölkələrinin əksəriyyəti Türk Dövlətləri Təşkilatının üzvləridir. Bu təşkilatın yaradılmasında əsas məqsəd də yeni dünya düzənində türkdilində danışan, daha doğrusu Türk dövlətlərini bir araya gətirmək, xarici faktorlara qarşı bütün növ müqavimətini artırmaq olub. Azərbaycanla Türkiyə bu məsələdə yekdillik nümayiş etdirsələr də, Orta Asiyanın 4 türkdilli ölkəsi hələ də öz aralarında rəqabət aparmaqdadırlar. Bəzi hallarda isə iri dövlətlərin siyasətinin bir parçasına çevrilib potensial rəqibə çevrilirlər. Rusiyanın Qazaxıstandan yan keçməklə Türkmənistan, Özbəkistan və Qırğızıstan vasitəsilə Çinə yeni enerji xəttini yaratmaq planından söhbət gedir. Bir sözlə, Rusiya və Çinin regional siyasəti öz maraqlarına uyğunlaşdırıldıqca 4 Türk dövlətinin vahid platformadan çıxış etmək imkanları da məhdudlaşır.

Avqustun 4-də Aşqabadda Türkmənistan (Sərdar Berdiməhəmmədov), Tacikistan (Emomali Rəhmon) və Özbəkistanın (Şavkat Mirziyoyev) dövlət başçılarının ilk sammiti keçirilib. Əfqanıstan mövzusuna əlavə olaraq prezidentlər su və enerji əməkdaşlığı və Xəzər dənizinə çıxışı olmayan Özbəkistanın nəqliyyat dəhlizlərinin inkişafı məsələlərini müzakirə edəcəklər. Bu görüş Türkmənistanın imicini kompleksdən daha etibarlı və proqnozlaşdırıla bilən tərəfdaşa, xüsusən də nəqliyyat və tranzit məsələlərində dəyişmək istəyi sayəsində mümkün olub.

Türkmənistan prezidenti Sərdar Berdiməhəmmədov üçtərəfli sammit başlamazdan əvvəl Şavkat Mirziyoyev və Aşqabada gələn Emoməli Rəhmonla ayrı-ayrılıqda danışıb və ikitərəfli əlaqələri müzakirə ediblər. Bundan sonra birgə tədbir keçirilib və orada regional gündəliyin aktual məsələlərinə baxılıb. Məlumatı Özbəkistan prezidentinin mətbuat xidməti də təsdiq edib. Ekspertlər Qazaxıstan və Qırğızıstan liderlərinin sammitə dəvət olunmadığını vurğulayırlar. Bu, həm Əfqanıstanla həmsərhəd ölkələrin liderlərinin görüşü ilə izah olunur, həm də bu üç Mərkəzi Asiya ölkəsinin, xüsusən də Qazaxıstana təsir etməyən müxtəlif nəqliyyat layihələrində iştirakı ilə bağlı məsələlərin həllini tapması ilə izah olunur. Astana Qazaxıstan ərazisindən keçməyən alternativ dəhlizlərdə maraqlı deyil və Şərq-Qərb layihələrində Türkmənistandan tranzit məsələlərini müzakirə etməyə hazır deyil. Amma layihələr həyata keçirərkən Şimal-Cənub Türkmənistanla işləyəcək. O cümlədən, Qazaxıstan taxılının nəqli Türkmənistan istiqamətinə, daha sonra isə Əfqanıstana yönəldiləcək. Qazaxıstanda qazax taxılının Özbəkistan ərazisindən keçməklə dəmir yolu ilə daşınma tariflərinin yüksək olmasından narazı olduqları üçün alternativ yol haqda fikirləşiblər.

Qırğızıstana gəlincə, gələcəkdə prezident Sadır Japarovun da görüşə dəvət olunacağı istisna edilmir. MDB Ölkələri İnstitutunun Mərkəzi Asiya və Qazaxıstan sektorunun müdiri Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Andrey Qrozinin verdiyi məlumata görə, Çin praktiki hissəyə yaxındır. Bişkek 25 ildən artıqdır ki, Qırğızıstandan Özbəkistana dəmir yolunun həyata keçirilməsini ləngidir. Qırğızıstan hakimiyyətini bu layihənin zəruriliyinə, onun tranzitdən büdcə gəlirlərindən tutmuş yeni dəmir yolu dəhlizinin keçəcəyi respublika ərazilərində artım nöqtələrinin yaradılması imkanlarına qədər müəyyən müsbət effekt verəcəyinə inandıra bilməyiblər. Xatırladaq ki, Çin-Qırğızıstan-Özbəkistan avtomobil yolu 2019-cu ildən fəaliyyət göstərir. Amma problem ondadır ki, qışda yük maşınlarının hərəkəti çətinləşdiyindən, mövsümdən və hava şəraitindən asılı olmayan dəmir yolu dəhlizi lazımdır. “Aydındır ki, region üçün bu böyük nəqliyyat layihəsinin imkanlarını və gələcəkdə istifadəsini müzakirə etmək üçün yeni sahə var”, - Qrozin hesab edir.

Onun fikrincə, üç ölkənin başçıları yeni nəqliyyat dəhlizlərini, xüsusilə Qazaxıstandan yan keçəcək multimodal Cənub Nəqliyyat Dəhlizini də müzakirə edəcəklər. Bu, öz növbəsində, Astananın Qazaxıstanı Mərkəzi Asiya və Xəzər regionunda tam hüquqlu nəqliyyat mərkəzinə çevirmək planlarına zərbə vuracaq.

Dənizə çıxışı olmayan Özbəkistan regionda nəqliyyat məntəqələri, dəhlizlər və yeni marşrutlar şəbəkəsinin ən fəal şəkildə genişləndirilməsində ən maraqlı ölkədir. Belə bir hiss var ki, Özbəkistandan yeni nəqliyyat marşrutlarını keçmək Daşkənd üçün bütün xarici siyasət fəaliyyətinin əsasını təşkil edir. Çünki bu cür yanaşma həm Əfqanıstan məsələsini, həm də Xəzərə çıxış məsələsini ehtiva edir. Özbəkistan Xəzəryanı dövlət deyil, buna baxmayaraq, o, özünü Xəzəryanı dövlət kimi hiss edir və sonradan şimala, qərbə və cənuba doğru irəliləyərək Türkmənistan vasitəsilə dəniz limanlarına çıxışın yaradılmasında maraqlıdır.

Mano Araşdırma Təşəbbüsləri Mərkəzinin direktoru Bəxtiyor Erqaşev hesab edir ki, qarşıdan gələn sammit iki səfər - Azərbaycan prezidenti İlham Əliyevin Tacikistana və Özbəkistan prezidenti Şavkat Mirziyoyevin İrana səfəri kontekstində nəzərdən keçirilməlidir. “Türkmənistan İranla həmsərhəddir və Özbəkistandan İrana Trans-İran dəhlizinin formalaşmasında əsas həlqədir. Nəzərə alsaq ki, Əfqanıstanda tam sülhün bərqərar olması hələ çox uzaqdır və təhlükəsizlik məsələlərinin həll olunmaması səbəbindən İrana çıxışı olan Məzari-Şərif-Herat-Xaf dəmir yolunun çəkilməsi məntiqsizdir, indi Özbəkistan-Türkmənistan-İran marşrutunun açılması nəzərdən keçirilir”, - deyə Mərkəzin direktoru Baxtiyor Erqaşev bildirib. O, həmçinin qeyd edib ki, Türkmənistan Mərkəzi Asiya ölkələri üçün Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Azərbaycandan keçməklə Türkiyənin dəniz limanlarına və Aralıq dənizinə çıxış üçün əsas halqadır. Bu məsələdə Türkmənistanın rolunu və əhəmiyyətini qiymətləndirməmək olmaz, ona görə də Aşqabad bu layihənin fəal iştirakçısı olacaq.

Qonşu Tacikistan da bu layihədə maraqlıdır. Coğrafi baxımdan Tacikistan Xəzər limanına yalnız Özbəkistan və Türkmənistandan keçə bilər və bu baxımdan üç ölkənin əlaqəsi kifayət qədər məntiqli görünür. Simptomatikdir ki, onlar son vaxtlar öz maraqlarını qorumaq siyasətini həyata keçirən Qazaxıstanı deyil, qonşularının mənafeyinə xələl gətirirlər.

Əfqanıstan tərəfinin Koş-Təpə dolama kanalının tikintisi problemi də diqqət mərkəzindədir. Türkmənistan, Özbəkistan və Tacikistan Amudərya hövzəsində yerləşir və layihənin tikintisi başa çatdıqdan sonra Amudəryadan gələn suyun təxminən 25%-i Koş-Təpə kanalına yönləndiriləcək ki, bu da Türkmənistan və Özbəkistanın kənd təsərrüfatı torpaqlarında ciddi su çatışmazlığına səbəb ola bilər. Ekspertlər bu ölkələrin suvarma suyunun 15%-ə qədərini itirəcəyini proqnozlaşdırırlar. Çox güman ki, üç dövlətin başçısı bu məsələ ilə bağlı mövqeni razılaşdıracaqlar.

Ekspertlər diqqəti üç dövlətin zirvə toplantısına çağıran Türkmənistanın əslində imic dəyişikliyini elan etdiyinə - qapalı ölkə və çətin tərəfdaş kimi, xüsusilə də ölkənin nəqliyyatından səmərəli istifadə məsələlərində daha proqnozlaşdırıla bilən xarakter almasına diqqət çəkiblər. Türkmənistan tranzitin sərfəli olduğunu başa düşür. Onun yaxşı nəqliyyat və tranzit mövqeyi var, ona görə də bu istiqamətdə irəliləməyə başlayır. Türkmənistan Mərkəzi Asiya ölkələri üçün əsas halqa olduğunu və bundan sonra da olacağını bilir. Ona görə də maksimum üstünlük əldə etməyə çalışır.

Qeyd etmək yerinə düşər ki, Orta Asiya ölkələri varlı və gəlirli Qərb bazarlarına çıxmağın yollarını da aramaqdadırlar. Azərbaycanın illərdir danışdığı, müzakirə etdiyi TransXəzər marşrutu da arzuların reallaşmasına ən böyük töhfə olacağını əminliklə söyləyə bilərik. Amma Orta Asiya ölkələrinin hələ də marşrut axtarması başadüşülən deyil. İran və Rusiyadan keçən marşrutlar ideya olaraq qalacaq, necə ki, Qərbin sanksiyaları hələ də qüvvədədir. Yeganə istiqamət Xəzərdən, Azərbaycandan, Gürcüstandan (Zəngəzur dəhlizindən), Türkiyədən keçməklə Avropaya, Aralıq dənizi hövzəsindəki bazarlara çatmaqdır. Orta asiyalı qardaşlarımız alternativi olmayan Orta Dəhliz marşrutunu nəhayət qəbul edəcəklərmi?

***V.VƏLİYEV***



# Azərbaycan-İtaliya münasibətlərində yeni hədəflər

***Azərbaycan üçün mühüm tərəfdaşlardan birinə çevrilən İtaliya ilə ölkəmiz arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğu dostluq münasibətlərinin şərtləndirən amildir. İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişafının nəticəsi olaraq İtaliya da tariximizin çətin zamanında ölkəmizlə həmrəylik nümayiş etdirdi. Əlbəttə ki, ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir.***

Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən, siyasi-iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlər əldə olunub. Ölkə başçılarının qarşılıqlı rəsmi səfərləri mövcud münasibətlərin inkişafını daha da yüksəldib. Səfərlər çərçivəsində bir çox razılaşmalar və strateji tərəfdaşlıq haqqında mühüm sənədlər imzalanıb. Azərbaycanın işğaldan azad olunan ərazilərində dost ölkələrlə yanaşı, İtaliyanın da yaxından iştirakı əlaqələrin davamlığına söykənir.

Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin aradan qaldırılması kimi həyati əhəmiyyətli başlıca məqsədə xidmət edir.

Ölkəmiz özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirir. Mövcud münasibətlər ölkələr arasında bütün istiqamətlərdə, siyasi-iqtisadi, ticarət, qanunvericilik, o cümlədən mədəniyyət, elm-təhsil sahələrində nailiyyətlərin əldə olunmasına səbəb olub.

Dünya ölkələri sırasında İtaliya ilə Azərbaycan arasında olan diplomatik münasibətlərin də xüsusi yeri var. Belə ki, İtaliya ölkəmiz üçün mühüm tərəfdaşlardan birinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul etməsi ölkələr arasında münasibətlərin davamlığına söykənir. Görüşdə Azərbaycanla İtaliya arasında səmərəli tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, hərbi və mülki sahələrdə dünyanın ən qabaqcıl şirkətlərindən biri olan "Leonardo" şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olunub. İtaliyanın müdafiə məhsulları istehsal edən ən böyük şirkəti olan "Leonardo"nun mülki sektorda da maraqlı texnologiyaları, o cümlədən "Smart city" texnologiyası, süni peyk istehsalı və aerokosmik xidmətlər, böyük şəhərlərin nəqliyyat sistemlərinin idarəedilməsi də var. Şirkətin rəhbər şəxsləri bu sahələrdə də ölkəmizə faydalı ola biləcək əməkdaşlıqla bağlı təşəbbüslərini ifadə ediblər.

Xatırladaq ki, 1992-ci ilin may ayının 8-də qurulmuş diplomatik əlaqələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yüksələn xətlə inkişaf etmişdir.

1997-ci ilin mart ayında İtaliya hökuməti Cənubi Qafqaz ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda öz səfirliyini təsis etmişdir. 2003-cü ilin dekabr ayında Azərbaycan Respublikasının İtaliyada Səfirliyi təsis edilmişdir.

1997-ci ilin 25-28 sentyabr tarixlərində Ulu Öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına təkan vermişdir. Ulu Öndər Heydər Əliyevin İtaliyaya ilk rəsmi səfəri iqtisadi münasibətlərin inkişafında xüsusi rol oynayıb. Bu səfər nəticəsində bağlanan "İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat", "İnvestisiyaların qorunması və həvəsləndirilməsi haqqında müqavilə" iki ölkə arasında iqtisadi münasibətlərin inkişafında xüsusi rol oynayıb. Qeyd olunan sazişlərdən başqa Azərbaycan Dövlət Neft Şirkəti və İtaliyanın "Eni-Acip" şirkəti arasında "Kürdaşı" blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" sazişin əsas kommersiya prinsipləri və müddəaları barədə sənəd də imzalanıb. İkitərəfli əməkdaşlıq haqqında imzalanan sənədlər qarşılıqlı əməkdaşlığa söykənir.

### STRATEJİ TƏRƏFDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR BİRGƏ BƏYANNAMƏ

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfərləri və imzalanan sənədlər qarşılıqlı əlaqələrin daha dərinləşməsində mühüm rol oynayır. 2005-ci ilin fevralında Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri ikitərəfli münasibətlərə xüsusi təkan vermiş və bu sahədə yeni mərhələlərin başlanğıcını qoymuşdur. Səfər çərçivəsində Azərbaycan-İtaliya Birgə Bəyannaməsi qəbul olunmuş və iki ölkə arasında əməkdaşlığa dair aşağıdakı 8 sənəd imzalanmışdır. Hər iki ölkənin tarixində silinməz izlər qoyan bu səfərlər dövlətlərarası əlaqələri daha da genişləndirmişdir. Əlbəttə ki, Azərbaycan və İtaliya yüksək səviyyədə dialoqun inkişaf etdirilməsində maraqlıdırlar. Möhkəm təməllər üzərində qurulan Azərbaycan-İtaliya əlaqələri rəsmi səfərlər zamanı daha da möhkəmlənmiş oldu.

Son illərdə də ölkələrimiz arasında siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində böyük uğurlara imza atılıb.

Cənub Qaz Dəhlizi Azərbaycan və İtaliyanın enerji sahəsində tərəfdaşlığına zəmindir. Cənub Qaz dəhlizi müxtəlif ölkələrdən ibarət geniş bir qrupun birgə səyləri nəticəsində ərsəyə gələn çox əhəmiyyətli nailiyyətdir. Onu da qeyd edək ki, İtaliya Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində çox önəmli rol oynayır və xüsusilə də, neft sənayesinin inkişafına təkan verir. İtaliyanın 100-dən çox şirkəti hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə Azərbaycanda italyanlar fəaliyyət göstərir.

Azərbaycan İtaliya ilə iqtisadi əlaqələrinə böyük diqqət yetirir və onların inkişafında və güclənməsində maraqlıdır. Vurğulamaq yerinə düşər ki, son illər ərzində İtaliya davamlı olaraq Azərbaycanın xarici ticarət dövriyyəsinin ölkələr üzrə strukturunda birinci yerə sahib olan aparıcı ticarət tərəfdaşıdır. İtaliya ilə Cənubi Qafqaz arasında ticarət dövriyyəsinin 95%-i Azərbaycanın payına düşür. O cümlədən, Cənubi Qafqaza ixrac edilən İtaliya məhsullarının 50%-i Azərbaycanın payına düşür.

2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri çərçivəsində də bir sıra əhəmiyyətli sənədlər imzalandı. "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin imzalanması Azərbaycan-İtaliya münasibətlərinin növbəti illər üçün mükəmməl yol xəritəsini ortaya qoydu. Sənəddə həm siyasi, həm iqtisadi, həm də humanitar aspektlər öz əksini tapıb. Bu Bəyannamədən irəli gələn işlər artıq sürətlə həyata keçirilməyə başlayıb.

### UNİVERSİTET BİNASI İNŞA EDİLMƏKDƏDİR VƏ 2024-CÜ İLİN SONUNADƏK HAZIR OLACAQ

Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Əlbəttə ki, Azərbaycanla İtaliya arasında əlaqələrin inkişafına böyük təkan verən məqamların mövcudluğunu şərtləndirən xeyli sayda nümunələr var. Bu əlaqələrin qurulmasında Heydər Əliyev Fondunun da müstəsna rolu var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən İtaliyada həyata keçirilən layihələr bu ölkənin mədəni irsinin qorunması baxımından önəmlidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən, mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirilib. Bəşəriyyət üçün önəmli dəyər olan Roma katakombaları Fondun dəstəyi ilə yenidən həyat qazanıb. Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası Müqəddəs Taxt-Tacın və Azərbaycanın müştərək layihəsinin tərkib hissəsidir.

Bu yaxınlarda Bakıda İtaliya-Azərbaycan Universitetinin təməli qoyuldu. Təməli qoyulan bu universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunmuşdu. Bu təhsil ocağının təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub. Universitet binası inşa edilməkdədir və 2024-cü ilin sonunadək hazır olacaq.

### "İTALİYA ŞİRKƏTLƏRİNİN GÖRDÜYÜ İŞLƏR MİQYASINA GÖRƏ TÜRKİYƏ ŞİRKƏTLƏRİNDƏN SONRA İKİNCİ YERDƏDİR"

Azərbaycan və İtaliya beynəlxalq müstəvidə də daim bir-birini dəstəkləyib, iki ölkə arasında böyük etimad formalaşıb. 30 ilə qədər davam edən Qarabağ münaqişəsi zamanı da İtaliya beynəlxalq qanunlara əsaslanaraq ədalətli mövqe nümayiş etdirib. 44 günlük Vətən müharibəsində də yaşanan çətin vaxtlarda İtaliya Azərbaycanla həmrəylik nümayiş etdirdi. Məhz dostluğun nəticəsidir ki, İtaliya işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə cəlb edilən ilk ölkələrdəndir. İtalyan şirkətləri işğaldan azad olunan ərazilərimizin bərpasında da öz köməkliklərini əsirgəmirlər. Azərbaycanla İtaliya arasında mövcud siyasi münasibətlər və iqtisadi tərəfdaşlıq işğaldan azad olunmuş ərazilərin bərpasında İtaliya şirkətləri ilə əməkdaşlığa yeni imkanlar yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iki ölkə arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, Azərbaycanın dağıdılmış şəhərlərinin bərpasına dair çoxspektrli planların yaradılması, yenidənqurma layihələrinin işlənməsi labüddür: "Bizim yeni infrastrukturun yaradılmasına - yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına ehtiyacımız var. Bunun səbəbi ermənilər tərəfindən hər şeyin dağıdılması, yerlə-yeksan edilməsidir. Buna dair kifayət qədər videomaterial var. Onlar vəhşi kimi davranmış və şəhərlərimizi darmadağın etmişlər. Bu da Azərbaycana qarşı olan təcavüzkar siyasətin bariz nümunəsidir". İtaliya şirkətləri ilə bir çox sahələrdə - şəhərsalma, ərazilərin minalardan təmizlənməsi, turizm, kənd təsərrüfatı kimi sahələrdə nəzərdə tutulan layihələrin həyata keçirilməsi dövlətlərarası münasibətləri daha da genişləndirəcəkdir.

İtaliya və Azərbaycan arasında Qarabağın enerji infrastrukturunun qurulması çərçivəsində əməkdaşlıq haqqında müqavilənin imzalanması bu istiqamətdə atılan ilk addım oldu. İtaliya şirkətləri Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərində fəal iştirak edir. İtaliyanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpa olunmasında fəal iştirakı, iqtisadi layihələrin həyata keçirilməsində fəallığı iki ölkə arasında münasibətlərdə yeni müstəviyə yüksəlir.

Cənab Prezidentin müsahibələrinin birində bildirdiyi kimi, "İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Türkiyə şirkətlərinin birinci yerdə olması təbiidir. Çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların məşhur tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləridir. Mən sizə misal göstərə bilərəm. Məsələn, bizim Memorial və Zəfər muzeylərimiz təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib."

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şuşa ədəbi mühitinin yetirməsi: Xurşidbanu Natəvan

***Azərbaycanın əsrarəngiz təbiəti, milli-mənəvi dəyərlərinin beşiyi kimi tanınan Şuşa əsrlərin sınağından cıxaraq yüzilliklərin daş yaddaşında tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Tarixə nəzər salsaq qeyd etmək lazımdır ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.***

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1748-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli xan Cavanşirlər tayfasının Sarıcanlı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Mənbələrdə göstərilir ki, məşhur rəssam V.Vereşşagin Şuşanı göründən sonra yazırdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi.

XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi, mədəniyyət mərkəzinə çevrilmişdi. Şuşanın yetirmələri sırasında Şuşada XIX əsr Azərbaycanın görkəmli şairəsi, sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsi Xurşidbanu Natəvan dünyaya göz açıb. Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdir. O, ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" çağırmışlar. Nizamilər, füzulilər, qətran təbrizilər, nəsimilər, xaqanilər yetişdirən bu torpağın hər bir qələm sahibi vətənin gələcəyi, onun insanlarının firavan həyatı naminə söz səltənətində imzaların atmışlar. Azərbaycan ədəbi mühiti bir sıra qüdrətli sənətkarlar, o cümlədən, şairə qadınlar yetişdirmişdir, onların sırasında Məhsəti Gəncəvi, Fatma xanım Kəminə, Aşıq Pəri və başqalarının adı və yeri var. Belə nurlu insanlara qarşı hər zaman xalq məhəbbəti olmuş və əsərləri əldən-ələ keçərək diqqətlə mütaliə edilib, tədqiq belə olunmuşdur. Müasir dövrümüzdə Azərbaycan ədəbiyyatı tarixinin yaradıcıları olan simalara diqqət xüsusilə artmışdır. Parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyat tarixində özünəməxsus layiqli yer tutan Xurşidbanu Natəvan klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınır.

### İKİ BÖYÜK NƏSLİN DAŞIYICISI

Onunla bağlı olan tərcümeyi-halında qeyd olunur ki, balaca Xurşudbanunun ilk tərbiyəçiləri sarayın təcrübəli dayə və mürəbbiyələri olmuşdular. Məktəb yaşına çatdıqda isə evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı Xurşudbanu "Quran" ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur. XIX əsrdə kübar ailələrin uşaqlarına bir qayda olaraq doğma dili ilə bərabər, ərəb və fars dili, onun sərfi-nəvi təlim edildiyindən, Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şeirin qayda-qanunlarını mənimsəmişdir. Dahi şərq şairlərin ələ düşən nadir kitabları, qiymətli əlyazmaları Xurşudbanunu klassik ədəbiyyata bağlamışdır. Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Cavan, Mirzə Adıgözəl, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məslәhətləri ilə Xurşudbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər. Tarixçilərin ehtimalına görə, bu dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmiş və Xurşudbanu Xasay bəy Usmubəylə izdivaca məcbur edilmişdi. Belə bir ehtimal da vardır ki, Vorontsovun şəxsi yavəri Xasay bəy Tiflisdə onlara mülk iddialarında kömək göstərmiş və bunun müqabilində Xurşudbanuya evlənməyi təklif etmişdir. 1850-ci ilin payızında Xasay bəy Şuşaya gəlib toy etmiş və Xurşudbanunu Dağıstana öz doğma kəndinə, oradan da Tiflisə aparmışdır. Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmuşdur. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Bu fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi vardır. Bunlardan birisi şairənin soy kökündür. Yəni, Natəvanda iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı vardır. Adlarını çəkdiyimiz bu iki böyük və şərəfli nəslin hər birisi dünyaya bir sıra şair gətirmişdir. Onlardan Cavanşir nəslindən Əbülfət-xan Tutinin, Qasım bəy Zakirin, Ziyad-oğlu Qacar nəslindən isə Ziyadi Qarabağı, Müsahib Gəncəvi və bir sıra başqa şairlərin adlarını çəkmək olar. Maraqlıdır, ki, Ziyadi Qarabağı və Musahib Gəncəvi vaxtilə Qarabağ bəylərbəyisi olmuşdurlar. Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov "Natəvanın şair qohumları" kitabında bu məsələni geniş açıqlayır. Eyni zamanda, Ziyadoğlu Qacar nəslindən çıxan şairlərdən başqa kitablarda da söz açılır. Füzuli adına Respublika əlyazmalar institutunun fondunda Müsahib Gəncəvinin şeir divanı saxlanılır və bu əsərin üzərində institutun əməkdaşları elmi tədqiqatlar aparırlar. Natəvanın qızı Xanbikə xanım da anasının yolunu davam etdirərək, qəzəllər və rübailər yazmışdır. Xanbikə xanım "Məclisi-üns"ün üzvlərindən biri olub.

### ZƏRİF LİRİK PARLAQ BƏDİİ BOYALARDA

Natəvanın fitri istedadının üzə çıxması və çiçəklənməsinin başqa bir səbəbi, şübhəsiz, Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti də olmuşdur. Bəylər Məmmədov "Xurşidbanu Natəvan" kitabında yazır: "Hətta xatirələrdə Natəvanın "Xanlıq Şükür" adı ilə tanınan xidmətçisinə musiqi təlimi verməklə onu məşhur xanəndə etməsindən də danışılır". Özü də müəllif qeyd edir ki, bu haqda material Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fondunda saxlanılır. Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırır. Böyük sənətkarımız Seyid Şuşinskinin Natəvan haqqında xatirəsində qeyd olunur ki, o şairənin qəzəllərini "Segah" üstündə oxuyarmış.

Xurşidbanu Natəvan zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş, təkcə



Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. O, kasıblara əl tutmuş, Şuşaya su kəməri çəkdirmişdir. Mənbələrdə göstərilir ki, Şuşanın bir qrup şairləri bədii məclisi təşkil edilməsinin zəruriyyətini dərk edirdilər. Lakin məclis düzəltmək üçün şərait və imkan yox idi. Ziyalılar yalnız Xan qızının köməyinə ümid edirdilər. Xan qızı bu şairlərin təklifini məmnuniyyətlə qəbul etmiş və nəticədə qısa bir müddətdə Şuşada "Məclisi-üns" - yəni, dostluq, ülfət məclisi yarandı. Bu məclisə rəhbərliyi və onun bütün xərclərini Xan qızı öz üzərinə götürmüşdür. Şuşada Mir Möhsün Nəvvab Qarabağinin rəhbərliyi ilə "Məclisi-fəramuşan" adlı daha bir poetik məclis də fəaliyyət göstərirdi.

"Məclisi-üns"də tanınmış Qarabağ şairləri ilə yanaşı, məşhur xanəndə və sazəndələr də iştirak etmişlər. Bunlardan Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Meşədi Dadaş, Əbdülqəni və Sadıqcanın adlarını çəkə bilərik. Məşhur tarzən Qurban Pirimov yazırdı: "Xurşidbanu nəinki şeir, eləcə də musiqini çox sevirdi. Xanəndələrdən Hacı Hüsü və Meşədi İsi onun məclisində oxuyardılar. Bu xanəndə oxuyarkən Natəvanın qəzəllərindən tez-tez istifadə edərdilər. Son vaxtlara qədər Cabbar onun qəzəllərini öz repertuarında saxlardı". Füzuli adına Respublika Əlyazmalar İnstitutun fondunda saxlanılan Mir-Həsən Ağamirovun "Natəvan haqqında xatirələrdə" qeyd olunur ki, Natəvanın hər bir məclisində musiqiçilər iştirak edirdilər, Natəvanın bəzi məclisləri isə sırf musiqi məclisi hesab olunurdu və burada Natəvanın qəzəlləri də oxunurdu. Gənc şairə Şuşada "Məclisi üns" ədəbi məclisini təşkil etmişdir. 1855-ci ildə Xurşidbanunun oğlu, 1856-cı ildə qızı dünyaya gəlmişdir. Oğlunun adını Mehdiqulu, qızın adını isə Xanbikə qoyurlar. Natəvanın qızı Xanbikə xanım da anasının yolunu davam etdirərək, qəzəllər və rübailər yazmışdır. Onun bir-neçə qəzəli Vasif Quliyevin "Dünənə uzanan cığır" kitabında çap olunmuşdur.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmışdır. Xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

## Malayziya mediası Ermənistanın "humanitar yardım" manipulyasiyasından yazır


Trending BUSINESS Berjaya Land to take Kedah caretaker MB to court over Selangor...

NEW STRAITS TIMES

Armenia's acceptance of reality post-occupation spells a better future with Azerbaijan

By Dr Elsevar Salmanov
August 4, 2023 @ 9:40am

A sign informing visitors that they're entering Azerbaijani territory. -Pic courtesy of the writer

AS it is known, Armenia kept the Azerbaijani lands under occupation for nearly 30 years and has made illegal activities in this region a normal

Malayziyanın nüfuzlu "New Straits Times" qəzeti "Ermənistanın işğaldan sonrakı dövr reallığını qəbul etməsi Azərbaycan ilə daha yaxşı gələcək vəd edir" sərlövhəli məqalə yayımlayıb. Ölkəmizin Malayziyadakı səfirliyinin diplomatı Elsevər Salmanovun müəllifi olduğu məqalədə Ermənistanın "humanitar yardım" manipulyasiyasının əsl mahiyyətindən bəhs olunur. Müəllif son 3 ilə yaxın müddət ərzində iki ölkə arasında sülh istiqamətində olan prosesdə Ermənistan və havadarlarının səmimiyyətsizliyindən söz açaraq, Ermənistanın sürətlə silahlanması, Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı şifahi bəyanatlarına baxmayaraq, Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycana məxsus regionda hələ də qanunsuz hərbi birləşmələrini saxlamaqda davam etməsi, danışıqlar prosesində hələ də başqa ölkələrin cəsarətləndirmələri ilə vaxt udmağa çalışması, Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsi kimi faktları diqqətə çatdırır.

Yazıda bundan başqa, Ermənistan rəhbərliyinin "humanitar yardım" teatrı təşkil edərək, Azərbaycandan icazə almadan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısında 19 yük avtomobilini saxlamaqla Azərbaycanı bütün dünyaya "humanitar ehtiyaclarına mane olan mənfi dövlət" kimi təqdim etməyə çalışması, Azərbaycanda saxlamaqda davam etdiyi qanunsuz silahlı birləşmələr məsələsi, Zəngəzur dəhlizi öhdəliyi və mina problemini ört-basdır etməyi, eləcə də daxili siyasətdə müxalifətin təzyiqini azaltmağı planlaşdırması diqqətə çatdırılır.




# Meşəli: bir qərinə gözlədiyimiz ədalət




**Haqq nazilər, lakin üzülməz, deyən atalarımızın əsrlərin süzgəcindən süzülüb gələn dəyərli deyimi zamanın bütün anlarında özünü doğruldub. Elə bu günlər erməni vandalı Vaqif Xaçaturyanın Laçın yolunda sərhədçilərimiz tərəfindən saxlanılması kimi. 1991-ci ildə Xocalının Meşəli kəndində törədilən insanlığa yaraşmayan cinayətin başında dayanan əliqanlı bu qatil ötən bir qərinəlik dövrdə gizlənməklə bu cinayətin unudulacağını zənn edib. 30 ildən sonra utanmazcasına ortaya çıxıb Ermənistana gəlmək xəyalına düşüb. Düşünüb ki, aradan uzun illər ötüb, etdiyi cinayətlər unudulub, ölən ölüb, qalanın yadından çıxıb. Lakin fikirləşməyib ki, hələ də evindən-eşiyindən didərgin saldığı insanlar köçkün həyatı yaşayırlar. Hələ də gözləri önündə olan vəhşiliyin acısını unutmayıblar. Yəni o dəhşətli anları unutmaq olarmı? Gözləri qarşısında körpə balasının süngərə keçirilməsini, qocacavanın olmazın müsibətləri ilə öldürülməsini unudan olarmı? Canlarını bu terrorist qrupun əlindən qurtarıb qaçanlar isə illərdir ki, ata-baba yurdlarına həsrətli olaraq ömür sürürlər.**

30 il sonra yaxalanan cinayətkarı isə nəinki quldur ermənilər, bəzi beynəlxalq təşkilatlar, hətta bizim başıpozuq müxalifət nümayəndələri müdafiə edirlər. Onun azad olunmasını arzulayırlar. Lakin düşünən yoxdur ki, belə quldur dəstələrin, terrorist birləşmələrin başında dayananlar illərdir ki, iki xalq arasında münaqişə ocağına çevrilib, bu ocağı hər an alışdırmaqla, iki milləti bir-birinə vurub, bitməyən problemlərə səbəb olublar.

### Meşəli çoxsaylı soyqırımı cinayətlərinin bir epizodudur

Meşəli faciəsinin fonunda ermənilərin azərbaycanlılara qarşı törətdiyi onlarla soyqırımı xatırlanır. 1905-1907, 1918-1920, 1948-1954, nəhayət, 1980-1990-cı illərdə Azərbaycanın ayrı-ayrı bölgələrində ermənilər tərəfindən həyata keçirilən soyqırımı hadisələri tarixin qanlı səhifələridir. Bunların heç biri üçün erməni terror qruplaşmaları layiqli cəza almayıblar. Elə cəza almadıqları, müdafiə olunduqları üçün və arxalarında dayananlar səbəbindən də bu kimi soyqırımları Qaradağlıda, Xocalı şəhərində, Ağdabanda, Ballıqayada, Başlıbeldə və Azərbaycanın daha neçə-neçə yaşayış məntəqələrində təkrarlanıb.

Azərbaycan Hərbi prokurorluğundan da bildirildiyi kimi, Meşəli kəndində baş verən soyqırımı erməni silahlı birləşmələri tərəfindən 1989-cu ildən 1992-ci ilədək Azərbaycan xalqına qarşı törədilmiş çoxsaylı soyqırımı cinayətlərinin bir epizodudur. Həmin cinayət hadisəsi ilə əlaqədar cinayət işi başlanaraq ilkin istintaq hərəkətləri aparılsa da, döyüş şəraitində istintaqı başa çatdırmaq mümkün olmamış, lakin istintaq uğurla davam etdirilmiş və müəyyən olunmuşdur ki, Xaçaturyan Vaqif Çerkezoviç qanunsuz erməni silahlı birləşməsinin digər üzvləri ilə birlikdə Xocalı rayonu, Meşəli kənd əhalisinə silahlı basqın edərək 25 nəfəri qətlə yetirmiş, 14 nəfərə müxtəlif dərəcəli xəsarətlər yetirmiş və 358 nəfər şəxsi heç bir qanuni əsas olmadan yaşayış yerindən didərgin salmışdır.

2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsində xalqımızın əldə etdiyi şanlı Zəfər ermənilərin torpaq işğalına son qoysa da, əzəli torpaqlarımızda aparılan bərpa işləri ilə soydaşlarımızın artıq ata-baba yurdlarına qayıdışı başlansa da, ermənilər, beynəlxalq təşkilatlar və bizim ermənipərəst müxalifət nümayəndələri unutmasın ki, həmin soyqırımları, faciələr bu xalqın ürəyinə dağ çəkib. İnsanlar yurdlarını tərk ediblər. Gözləri qarşısında əzizləri güllələnib, asılıb, gözü oyulub, dərisi soyulub, süngərə keçirilib, min bir əzaba məruz qalıb. Unutmasınlar ki, soyqırımı qurbanları 30 ildən artıqdır ki, köçkün həyatı yaşayırlar. Onlar evlərində rahat yaşadıqları halda bu insanlar köçkünlükdə əsla öz evlərindəki rahatlığı tapa bilməyiblər. Yurdları həmişə yuxularına gəlib, o ellərdə qoyub gəldikləri əzizlərinin qəbirləri ilə söhbət ediblər, nigarançılıqlarını bildiriblər. Bayram olub, toy olub bu yurd nisgilli insanların üzü gülməyib. Nə qədər dövlətimiz tərəfindən şəraitləri, vəziyyətləri yaxşılaşdırılsa da, onlara xüsusi qayğı göstərilsə də, torpaq sevgisi, yurda həsrət onların içindəki boşluğu doldura bilməyib. Bax, ölkəmizin erməni soyqırımına məruz qalan minlərlə vətəndaşı uzun illərdir ki, bu həyatı yaşamalı olublar.

### Meşəli sakinləri etiraz edir

Bu günlərdə meşəlililər Vaqif Xaçaturyan kimi terrorçuların həbsi və cəzalarını alması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ediblər. Müraciətdə deyilir: Biz – 1991-ci ilin dekabrında Xocalının Meşəli kəndində Ermənistan silahlı qüvvələri tərəfindən soyqırımına məruz qalmış kəndin sakinləri müharibə cinayətkarı, bu günlərdə Laçın yolunda ələ keçirilmiş Vaqif Xaçaturyanı yaxşı tanıyırıq. Onun əlləri dinc insanların - körpələrin, qadınların, qocaların qanına batıb.

Otuz iki ildir ki, bizə qarşı Meşəlidə törədilmiş soyqırımı ilə heç bir beynəlxalq təşkilat maraqlanmayıb, heç bir insan hüquqları təşkilatı buna görə Ermənistana etiraz səsini ucaltmayıb, bizimlə sanki heç nə olmamış kimi davranıblar, bu boyda faciəni görməyiblər, eşitməyiblər. Biz yaxşı bilirik ki, məhz görmək istəməyiblər, eşitmək istəməyiblər.

Amma müharibə cinayətkarı Vaqif Xaçaturyan ələ keçən kimi bu təşkilatlar peyda olub, bir-birinin ardınca onun azad edilməsinə çağırışlar edirlər. Biz – Meşəli sakinləri bundan böyük hiddət keçiririk, bunu özümüzə qarşı təhqir, həqarət kimi qəbul edirik. Bu cür çağırışlar yolverilməzdir!

Meşəlidə bizə vurulan yaralar hələ də sağalmayıb. Biz illərdir ki, bu müharibə cinayətlərindən əziyyət çəkirik, doğma yurd yerlərimizdən didərgin düşmüşük.

Bu gün Goranboyda Meşəli kəndindən olan yüzlərlə ailə Meşəli köçkün şəhərciyində kompakt şəkildə yaşayır. Bu gün hər bir Meşəli sakininin tələbidir ki, Vaqif Xaçaturyan və onun kimi digər müharibə cinayətkarları bizim qarşımızda – Azərbaycan məhkəmələrində cavab verməlidir.

### Onillər boyu gözlənilən ədalət

Belə bir sual çıxır meydana: Vaqif Xaçaturyan həbs edilməməli idimi? Bütün yaşananların üzərindən xətt çəkilməli idimi? Axı xalqımızın nümayəndələri bu hadisələrin acısı ilə illərlə yaşayıblar. Yurd həsrəti, övlad acısı, ata itkisi ilə qovrulublar. İndi kimin haqqı çatır ki, bizdən bu düşmənlərin cəzasız qalmasını tələb edə? Axı bu, insanlığa yaraşmayan düşüncə tərzidir. Görəsən xaçaturyanların azadlığını tələb edənlərin özləri bircə dəfə də olsa, soyqırımına məruz qalıblarmı? Yurd, övlad itiriblərmi? Atasız-anasız, evsiz-eşiksiz qalıblarmı?

Bizim müxalifəti bu məsələdə bir kənara qoyaq. Çünki onların kimə xidmət etdiklərini illərdir, bilirik. Hansı qrandlar hesabına xalqı satdıqlarını, övladlarımızı qurban verdiklərini bilirik. Öz mənafeləri üçün Vətəni satdıqlarını, bu biabırçılığı hələ də-Böyük Zəfərdən sonra davam etdirdiklərinin arxasında nələrin dayandığını anlayırıq.

Lakin Xaçaturyan kimiləri maşınlarında gizlədən, haqsız ittihamda olan beynəlxalq təşkilatlar heç olmasa, indi susmasınlar, onillər boyu gözlənilən ədalətin bərpasına dəstək olsunlar. Elə meşəlililər də müraciətlərində bu məsələlərə toxunurlar: Otuz iki ildir ki, bizim çağırışlarımıza məhəl qoyulmayıb, bu müharibə cinayətkarlarının heç biri Azərbaycana təhvil verilməyib.

Onlara bəraət qazandırmağa, onları azad etməyə çalışanlar əmin olsunlar ki, bunların heç bir faydası olmayacaq. Bütün müharibə cinayətkarlarını Xaçaturyanın aqibəti gözləyir.

1991-ci ildə onlar düşünürdülər ki, törətdikləri əməllər cəzasız qalacaq, bizi yiyəsiz, sahibsiz görmüşdülər. Bu gün Azərbaycan güclü dövlətdir, qalib dövlətdir, onun Müzəffər Ali Baş Komandanı var! Biz Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşmişik!

Qarabağda gizlənən bütün müharibə cinayətkarları, Xocalı soyqırımını törədən qatillər yaxşı eşitsin ki, daha heç nə əvvəlki kimi olmayacaq. Onlar cavab verəcəklər!

Vaqif Xaçaturyanı azad etməyə çağırış edənlər Meşəli, Xocalı sakinləri qarşısında, Azərbaycan xalqı qarşısında utanmalı, xəcalət çəkməlidirlər. Onlardan soruşuruq: "Bəs bizim haqq və hüquqlarımızı nə vaxt müdafiə edəcəksiniz?". Bu cür hərəkətlər insani və mənəvi dəyərlərə sığan yanaşma deyildir.

### Heç olmasa, bu dəfə...

Məlum olduğu kimi, 30 il torpaqlarımız Ermənistan tərəfindən işğal altında saxlanıldı. 1980-ci illərin sonu, 90-cı illərin əvvəlində olduğu kimi, ondan öncəki illərdə də xalqımıza qarşı ermənilərin törətdiyi soyqırımlarına, faciələrə Ermənistan dövləti tərəfindən heç bir reaksiya verilmədi. Hələ üstəlik Ermənistan dövlət olaraq bu hadisələrin yalan formada beynəlxalq içtimaiyyətə təqdim etdi. Soyqırımları həyata keçirən terrorist qruplaşmaları müdafiə etdi, gizlətdi. Ölkədən çıxmasını, xaricdə rifah içərisində yaşamasını təmin etdi.

Bir sıra beynəlxalq təşkilatlar da Azərbaycanın haqq səsinə səs vermədi. Onlar Ermənistanın, onun yalan, fırıldaq dolu təqdimatlarının tərəfində oldular. Azərbaycan isə bütün bunların fonunda öz acıları ilə başbaşa qaldı.

Dövlətimizin başçısı 2020-ci ilədək 17 il ərzində Azərbaycan həqiqətləri barədə beynəlxalq kürsülərdən çıxış etdi, Ermənistanın nəyə qaşdır olduğunu dünyaya bəyan etdi. Beynəlxalq təşkilatları ədalətli olmağa, iki dövlət arasında baş verən prosesləri araşdırmağa, real qiymət verməyə çağırdı. Lakin səsimizə səs verən olmadı.

Belə olanda isə biz bu problemi özümüz həll etməli olduq. Çünki dövlətimizin başçısı da həmişə vurğulayırdı ki, sülh yolu ilə mümkün olmasa, hərb yolu ilə torpaqlarımız işğaldan azad olunacaq. Çünki bu torpaqlar bizim əzəli torpaqlarımızdır.

Beləliklə, 2020-ci ildəki 44 günlük İkinci Vətən müharibəsi ilə düşmənin 30 illik fantastik düşüncələri alt-üst edildi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun qəhrəman zabit və əsgər heyəti erməniləri torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa etdi. Ermənistanın 30 il ərzində Azərbaycanın gücsüzlüyü, torpaqlarını azad etməyə qadir olmadığı kimi təsəvvürləri darmadağın edildi. Və düşdükləri vəziyyətlə kapitulyasiya aktını imzalamaqdan başqa çarələri qalmadı.

Müharibədən iki ildən artıq keçməsinə baxmayaraq hələ də ermənilər bu məğlubiyyətlə barışmaq niyyətində deyillər. İki ildə sərhədyanı rayonlarda vaxtaşırı atəşkəsi pozmaları, Laçın yolunda bitməyən əməlləri, sülhə gəlməmələri, minalanmış ərazilərin xəritələrini gizlətmələri, Vaqif Xaçaturyan kimi cəlladları ölkəyə dəvət edib yeni münaqişələrin hazırlanmasına rəvac verməläri göstərir ki, bu qonşuluqdan kənar olmuşların dincliklə işləri yoxdur. Lakin nədənsə müharibə zamanı aldıqları zərbələri unudurlar.

Əslində bu gün Ermənistan bir qrup terroristin əlində oyuncağa çevrilib. Xalq isə onların deyil, ədalətin tərəfindədir. Xalq sülh istəyir. Lakin erməni terrorist qruplaşmaları əsla bu fikirdə deyillər. Bütün bunlara əsasən belə qənaətə gəlmək olar ki, onlar bu reallıqları qəbul etməməklə, Qarabağda yaşamağın hansı şərtlərlə olacağını anlamaq istəməməklə sülh prosesinə qarşı çıxdıqlarını sərgiləyirlər. Vaqifləri ölkələrinə gətirmək istədikləri kimi.

Lakin beynəlxalq ictimaiyyət heç olmasa, bu dəfə reallıqları görməli, həqiqətlərin tərəfində olmalı, Ermənistana "ta bəsdir",- deməlidir. Axı bu beynəlxalq ictimaiyyət 44 günlük müharibənin şahidi olmaqla, əslində haqqın kimin tərəfində olduğunun da şahidi oldu. Belə isə xaçaturyanları müdafiə etməyin, gizlətməyin də hansı reallığa sığdığına bir nəzər salsalar, daha ədalətli olar. Unutmayaq ki, ədaləti görməyənlərin cəzası bir gün özlərinin də ədalətsizliyə düçar olması olacaq.

***Mətanət Məmmədova***

# MKİ - dünyada jurnalistikanın əsas sponsoru




***Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ABŞ-da və ondan kənarda düzgün nöqteyi-nəzəri tətbiq etməklə dünyada jurnalistikanın əsas sponsorudur. Agentliyin axtarış sistemləri və sosial şəbəkələrlə qarşılıqlı əlaqəsi heç bir şübhə yeri qoymur. Kəşfiyyat qurumu Qərbin gördüklərini, eşitdiklərini və inandıqlarını formalaşdırdığını əminliklə söyləmək olar. MKİ və onun "kuklaları" qlobal ictimai müzakirə məkanında gördüklərimizə, eşitdiklərimizə və inandıqlarımıza güclü təsir göstərir. Bəlkə də əldə etdiklərimizi sorğulamağa başlamağın vaxtıdır, deyə bilərik. Amma...***










Kiçik Robert Kennedi (Amerikalı hüquqşünas və radio aparıcısı, ABŞ prezident seçkilərinə namizəd, ABŞ prezidenti Con Kennedinin bacısı oğlu) Leks Fridmanla bu yaxınlarda müsahibəsi zamanı Mərkəzi Kəşfiyyat İdarəsini "Azərbaycanda bəzi jurnalistlərin və mətbu orqanların ən böyük sponsoru" adlandırıb. Bu olduqca təəccüblüdür, lakin Demokratlar Partiyasından prezidentliyə namizədin bəyanatında bəzi məqamlar həqiqəti əks etdirir. Azərbaycanda özlərini müstəqil mətbuatın nümayəndəsi kimi cəmiyyətə sırımağa çalışan bəzi jurnalistlər var ki, onların maliyyə qaynaqları əksəriyyətə məlum deyil. Bəziləri hətta o qədər imkanlıdırlar ki, adət etdiyimiz media nümayəndələrindən bütün mənalarda seçilirlər. Onlar haradan maliyyələşdiklərini açıq şəkildə deməsələr də, media cəmiyyəti artıq bu sirrdən agahdır. Təbii ki, belə jurnalistlər və onların təmsil olunduğu media orqanı heç vaxt müstəqil ola bilməzlər. Çünki, sifarişlə çalışır, mövqelərində tərəfsiz ola bilmirlər.

Hamının tanıdığı "müstəqil jurnalistlər"in çalışdıqları media qurumlarının internet resursu olmadığı üçün onları mətbuat kateqoriyasına aid etmək olmaz. Hansı media qurumunun ki, saytı var orada da bəzi çatışmazlıqlar görünür. Media qurumun gəlir yeri nə ola bilər? İlk növbədə reklamlar yada düşür. Belə olan halda məntiqli sual yaranır. Bəs həmin "müstəqil" media qurumların saytlarında niyə reklam yoxdur? Deməli, məsələnin görünməyən tərəflərini də burada axtarmaq lazımdır...

1948-ci ildə Frank Wisner Xüsusi Layihələr Ofisinin direktoru təyin edildi və bu ofis tezliklə Siyasət Koordinasiya İdarəsi adlandırıldı. Bu ofis MKİ-nin casus qolu idi və onun əsas vəzifəsi təbliğat aparmaq və iqtisadi müharibə aparmaq, eləcə də düşmən dövlətlərə qarşı təxribatçı fəaliyyətlər aparmaq və yeraltı müqavimət qruplarına dəstək vermək idi.

MKİ-nin xeyir-duası ilə Wisner məqsədi Amerika media yayımının vektorunu formalaşdırmaq olan "Mockingbird" əməliyyatını həyata keçirməyə başladı. Yazıçı Deborah Davisin fikrincə, "Mockingbird" əməliyyatı çox konkret ideyaları təbliğ etmək üçün bir sıra nüfuzlu amerikalı jurnalistləri işə cəlb edib. Bu çox genişmiqyaslı əməliyyatda çox hörmətli jurnalistlər, o cümlədən yüzlərlə müxtəlif qəzetlərdə məqalələri dərc olunan Cozef Alsop (Joseph Alsop) iştirak edirdi. MKİ-nin ehtiyac duyduğu hekayələri təbliğ etmək üçün işə götürülən jurnalistlər arasında "Nyu York Tayms"-dan Stüart Alsop, Ben Bradli və Ceyms Reston da var idi.



İndi 2023-cü ilə sürətlə irəliləyək. Bu gün MKİ-nin mənfur təsiri, görünür, daha güclü olmasa da, əvvəlki kimi güclü olaraq qalır. Son zamanlar MKİ "The Daily Beast" və "Rolling Stone" kimi ABŞ-ın bir sıra böyük media qurumları ilə sıx əlaqələr saxlayır. Fridmanla müsahibəsində Kennedi kəşfiyyat agentliyinin yeni liberal Salon vebsaytı ilə əlaqəsinə də işarə etdi. Təbii ki, bu media orqanlarının MKİ ilə birbaşa əməkdaşlıq edib-etməməsi sualına birmənalı cavab vermək mümkün deyil. Bununla belə, danılmaz olan odur ki, MKİ həm ABŞ daxilində, həm də onun hüdudlarından kənarda rəvayətlər tərtib etmək və düzgün nöqteyi-nəzəri tətbiq etmək qabiliyyətinə malikdir.

On il əvvəl prezident Barak Obama təhlükəli qanun layihəsini, Milli Müdafiə Təxsisatları Qanununu imzaladı. Jurnalist Leah Anayanın qeyd etdiyi kimi, bu sənəd MKİ-yə Amerika xalqına qarşı "qanuniləşdirilmiş psixoloji müharibə əməliyyatları" həyata keçirməyə icazə verdi. MKİ-nin insanlara təsiri solçu xəbər saytları və ənənəvi media korporasiyalarından çox-çox kənara çıxır. Keçən il "MintPress"-in hərtərəfli araşdırmasının nəticələri açıq şəkildə göstərdi ki, Facebook MKİ ilə sıx əlaqələr saxlayır. Və bu olduqca başa düşüləndir. Axı Facebook-un aylıq aktiv auditoriyası 2,95 milyarddır və həmin istifadəçilərin çoxu xəbərləri oxumaq üçün müntəzəm olaraq sayta daxil olur. "MintPress" komandası Meta-nın "Mərkəzi Kəşfiyyat İdarəsindən onlarla adamı, həmçinin FTB və ABŞ Müdafiə Nazirliyi kimi bir çox başqa qurumları işə götürdüyünü" aşkar etdi. Və şirkət tərəfindən işə götürülən bu insanlar "etibar, təhlükəsizlik və məzmun moderasiyası kimi siyasi əhəmiyyətli sektorlarla" işləyirdilər.

Mərkəzi Kəşfiyyat İdarəsi həmçinin Amerikanın çoxmillətli texnologiya şirkəti Google ilə sıx əlaqələr saxlayır və bu şirkət həm ölkə daxilində, həm də xaricdə şəxslərə casusluq etməyə meyllidir. Bu gün Google dünyanın ən populyar axtarış sistemidir. Nə üçün MKİ axtarış nəticələrinə təsir göstərməyə çalışmamalıdır? Hətta Silikon Vadisi ilə MKİ arasında ayrılmaz bir əlaqənin olduğunu da deyə bilərik.

Amma bu son deyil. Mərkəzi Kəşfiyyat İdarəsi öz təsirini başqa bir qüdrətli qurum - Demokratiya üçün Milli Dəstək (NED) tərəfindən maliyyələşdirilən təşkilatlar şəbəkəsi vasitəsilə həyata keçirir. 1983-cü ildə yaradılan NED rəsmi internet saytına görə, əsas məqsədi "siyasi və iqtisadi institutları təşviq etməklə digər ölkələrdə demokratiyanı təşviq etmək" olan qeyri-kommersiya korporasiyasıdır. Əminliklə söyləmək olar ki, NED "bütün dünyada demokratik təsisatların böyüməsini və möhkəmlənməsini" təşviq etmək məqsədi daşıyır.

Bununla belə, "New York Times" 1997-ci ildə NED fondunun "Mərkəzi Kəşfiyyat İdarəsinin onilliklər ərzində gizli şəkildə gördüyü işləri açıq şəkildə etmək üçün" yaradıldığını bildirdi. Vəqfin yaradılmasında əsas rol oynamış şəxs Allen Weinstein 1991-ci ildə dediyi kimi, "bu gün gördüyümüz işlərin çoxunu 25 il əvvəl MKİ gizli şəkildə edib".

Başqa sözlə, NED fondu MKİ tərəfindən idarə olunan bir alətdir. Fond hər il dünyanın 100-dən çox ölkəsində fərdlərə və qruplara minlərlə qrant paylayır. Bu qrantların çoxu, on minlərlə dollarla mediaya və jurnalistlərə gedir. Məsələn, araşdırmaçı jurnalistlər Matt Kenard və Mark Cutisin öyrəndiyi kimi, NED bir sıra Britaniya müstəqil media qruplarına milyonlarla dollar sərmayə qoyub. Onlar qeyd ediblər ki, fondun məqsədi "siyasi partiyalar, həmkarlar ittifaqları, dissident hərəkatları və media kimi təşkilatlara dəstək olmaqdır". Fond enerjisinin və resurslarının böyük hissəsini Şərqi Avropa, Latın Amerikası və Asiyaya yönəltsə də, Kenard və Curtis bu yaxınlarda Böyük Britaniyaya üz tutduqlarını, xüsusən də müxtəlif media qurumlarını və ən azı dörd mətbuat azadlığı qrupunu maliyyələşdirdiyini müəyyən etdilər. Jurnalistlərin fikrincə, maliyyə alanların hamısının "siyasi spektrin mütərəqqi sonunda olması" təəccüblü deyil.

Kenard və Curtis əlavə ediblər ki, NED Bellingcat, Finance Uncovered və openDemocracy kimi araşdırmaçı jurnalist qruplarına, həmçinin Thomson Reuters Fonduna maliyyə ayırıb. Bundan başqa, NED bir sıra xarici media qruplarını, o cümlədən Internews, PEN və Sərhədsiz Reportyorlar təşkilatlarını maliyyələşdirib. NED-in təsirini bütün Avropada, xüsusən də Polşa, Çexiya, Slovakiya, Bolqarıstan və Fransa kimi ölkələrdə görmək olar. Və bu hamımızı narahat etməlidir. MKİ onilliklər ərzində qanundan kənar fəaliyyət göstərib və öz işinin şəffaflığını təmin etmək cəhdlərinə fəal müqavimət göstərib. O, bir çox qeyri-qanuni müşahidə proqramları və demokratikləşdirmə əməliyyatları tətbiq edib.

Bütün bunlar bizi kiçik Robert Kennedinin bəyanatına qaytarır. Açığı, prezidentliyə namizəd səhv etmir. Əslində o, MKİ-nin təsir gücünü lazımınca qiymətləndirmir.

Bu agentlik və onun etibarlı nümayəndələri qlobal ictimai diskurs məkanında gördüklərimizə, eşitdiklərimizə və inandıqlarımıza güclü təsir göstərirlər. Bəlkə də Azərbaycanda fəaliyyət göstərən, amma maliyyə qaynağı qeyri-müəyyən olan, daha çox "azad mətbuat" etiketi altında gizlənərək fəaliyyət göstərən media orqanlarını təftiş etməyin vaxtı çoxdan çatıb. Əslində onlar özlərini, çirkin əməllərini çoxdan açığa çıxarıblar, amma bəzi "çətir" təşkilatlar belə jurnalistləri və media qurumlarını yerli qayda və qanunların hökmündən qorumağı bacarıblar. Artıq Qərb ölkələri və dünyanın qalan hissəsi MKİ-nin mətbuat üzərindən apardığı əməliyyatlardan xəbərdardır. İfşa olunubsa, hər şey bəllidirsə, deməli ona qarşı əks-həmlə etmək də asandır. Belə isə...

***V.VƏLİYEV***

***P.S. Məqalədə bəzi xarici mənbələrə istinadlar var.***





# Tarixi ədalətin bərpası, “Şuşa Bəyannaməsi” və Qarabağ

***Azərbaycan və Türkiyə dost, qardaş və rəsmi müttəfiq. Bu vaxta qədər çox böyük sınaqlardan keçən bu iki ölkə dünya miqyasında bir-birinə ən yaxın müttəfiqə çevrilib. Bu gün trixi köklərə bağlanan qardaşlıq birliyi bundan sonra da daha da möhkəmlənəcək. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı.***

Vətən müharibəsində dünyaya “Azərbaycan tək deyil” mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan “Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür” bəyan etdi.

İyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxış edən Prezident cənab İlham Əliyev dünyanın müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin suallarını cavablandırıb. Cənab Prezident qeyd edib ki, Türkiyə Prezidenti, qardaşı Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğu təkcə regionda deyil, dünyada məlum bir faktdır: “Bu, regional inkişaf və sabitlik baxımından çox mühüm amildir. Eyni zamanda Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi “Azərbaycan yalnız deyil!” bəyanatı, bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik”.

## *İLHAM ƏLİYEV: "Azərbaycan və Türkiyə qardaşlığı təkcə regionda deyil, dünyada məlum bir faktdır"*

### ŞUŞA BƏYANNAMƏSİ DÜNYAYA ÇOX AÇIQ BİR MESAJDIR Kİ, BİR MİLLƏT, İKİ DÖVLƏTDƏN İBARƏT ÇOX MÖHTƏŞƏM BİR BİRLİK NÜMUNƏSİ OLAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ HƏMİŞƏ BİR YERDƏDİR, BUNDAN SONRA DA DAHA YÜKSƏK SƏVİYYƏDƏ BİR YERDƏ OLMAĞI DAVAM ETDİRƏCƏKDİR

Bəli, Şuşa Bəyannaməsi İkinci Qarabağ Müharibəsində Azərbaycan ordusunun Ermənistan və onun havadarları üzərində əldə etdiyi qələbədən sonra regionda yaranan yeni geosiyasi reallıqların məntiqi nəticəsi kimi çox mühüm bir tarixi sənəddir. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən iki qardaş dövlət tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Şuşa Bəyannaməsi dünyaya çox açıq bir mesajdır ki, bir millət, iki dövlətdən ibarət çox möhtəşəm bir birlik nümunəsi olan Azərbaycan və Türkiyə həmişə bir yerdədir, bundan sonra da daha yüksək səviyyədə bir yerdə olmağı davam etdirəcəkdir. Türkiyə Azərbaycan üçün strateji müttəfiqlikdən də yüksək dəyərlərə malik ölkədir. İki ölkə rəhbəri arasında şəxsi dostluğun olması Türkiyə-Azərbaycan müttəfiqliyinin möhkəmlənməsində əsas rol oynayır. Təsadüfi deyil ki, Türkiyə Prezidenti beynəlxalq görüşlərdə və tədbirlərdə öz ölkəsi ilə yanaşı, Azərbaycanın da milli maraqlarını səsləndirir və müdafiə edir. Ərazi bütövlüyümüzün təmin edilməsində Türkiyənin Azərbaycana mənəvi və siyasi dəstəyi çox böyük rol oynayıb. Azərbaycan da Türkiyəyə öz dostluğunu həmişə nümayiş etdirir. Azərbaycan-Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri dünya dövlətlərinə örnək ola biləcək səviyyədədir. İki ölkə arasındakı münasibətlər yalnız hər iki dövlətin mənafelərinə deyil, dünyanın bütün dövlətlərinin və xalqlarının sülh və əmin-amanlıq şəraitində yaşamalarına xidmət edir. Azərbaycanla Türkiyə arasında istər siyasi, istərsə də iqtisadi sahələrdə mövcud əlaqələr dünyada ədalətin bərpasına, dövlətlərin bərabər hüquqa malik olmasına xidmət edir.

### ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

Bəli, Müttəfiqlik haqqında Bəyannamə təqdimatı hər şeyi deyir. Belə ki, məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixi və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümündə imzalanan Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu Bəyannamədir.

Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycan Prezidenti İlham Əliyev hər kəsin yadına Qars müqaviləsini salaraq bildirmişdir: ”Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır”.

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün də Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi. Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: ”Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir”.

Xüsusilə də, Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyinin göstəricisidir. Bu qardaşlıq və dostluq münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanan qardaşlıq birliyidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Müstəqillik Günü münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik məktubunda bir daha Şuşa Bəyannaməsinin iki qardaş ölkələrin arasında bu birliyin daha da möhkəm olacağının söyləyib: ”Özündə dərin məna ehtiva edən bu gündə Azərbaycan xalqının haqlı qürurunu və sevincini ürəkdən bölüşürük”.

Məktubda o da vurğulanır ki, ”Bir millət, iki dövlət” şüarı ilə birlikdə imzaladığımız Şuşa Bəyannaməsi ilə daha da möhkəmləndirdiyimiz bənzərsiz münasibətlərimiz indiyədək olduğu kimi, gələcəkdə də ölkələrimizin və regionumuzun sülh və sabitliyinin ən böyük təminatı olacaq.

### TÜRKİYƏ XALQINA, HƏM DƏ BÜTÜN DÜNYAYA BİR MESAJ: “BİZ BİR YERDƏYİK. BİZİM BİRLİYİMİZ SARSILMAZDIR VƏ ƏBƏDİDİR”

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxışı zamanı bildirmişdir ki, bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan birliyi, qardaşlığı önəmli faktora çevrilib: “Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir”.

Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasət dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər.

## RƏCƏB TAYYİB ƏRDOĞAN: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür"

Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir: «Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm”.

### “BU GÜN DƏ BİZ BİR YERDƏYİK, QARABAĞIN İNŞASINDA BƏRABƏR, ÇİYİN-ÇİYİNƏ ÇALIŞIRIQ”

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə səfəri zamanı bildirmişdir ki, bu gün Qarabağın bərpasında da qardaş Türkiyə Azərbaycanla bir yerdədir. Bir çox Türkiyə şirkətləri, o cümlədən Rize-Artvin hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Dövlət başçımızın da söylədiyi kimi: «Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik. Bu gün iki qardaş ölkənin münasibətlərinin ən yüksək səviyyəyə çatmasında dövlət başçıları arasında mövcud olan dostluq əlaqələrinin rolu böyükdür. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyip Ərdoğan arasında möhkəm dostluq təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, bütün türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir”.

Bəli, bu birlik həm də yenilməzliyimizin təminatçısıdır və imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türk dünyasının iqtisadi, siyasi və mədəni birliyi bu bəyannamə ilə daha da sarsılmaz olacaq. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Regionumuz bu iki türk dövlətinin təşəbbüsləri ilə inkişaf edəcək. Bu isə o deməkdir ki, gələcəkdə bölgədə süni münaqişələrin yaradılması və ya alovlandırılması da daha mümkün olmayacaq.

### ŞUŞA BƏYANNAMƏSİ BÖLGƏDƏ SÜLH, SABİTLİK VƏ FİRAVANLIQ ÜÇÜN GÜCLÜ BİR ÇAĞIRIŞDIR

Bəli, Şuşa Bəyannaməsi bölgədə sülh, sabitlik və firavanlıq üçün güclü bir çağırışdır və hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqlarımızın milli maraqlarını müdafiə edərək, onun mənafelərinin təmin olunması istiqamətində müstəqil xarici siyasət yürüdən iki böyük liderdir. Azərbaycanla Türkiyənin dünyada gedən proseslər haqqında mövqeləri üst-üstə düşür, bundan sonra da bu iki liderin rəhbərliyi altında iki dövlət BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birilərinə qarşılıqlı dəstək verəcəklər. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

### “GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR”

Bir sözlə, bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: “Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır”. Bəli, bu gün Türkiyə-Azərbaycan, ”Bir millət, iki dövlət”i rəsmiləşdirən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə “Bir millət, iki dövlətdir!”.

Dövlət başçımızın dediyi kimi: ”Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb”. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsini imzalamaqla hər zaman Azərbaycanın yanında olacağını rəsmən elan etdilər. Bu, tarixi hadisədir və xalqlarımızı qürurlandırır, gücümüzü artırır, birliyimizi möhkəmləndirir və dövlətlərimizi daha böyük uğura aparır.

**RƏFİQƏ KAMALQIZI**

## "Cinayətkarlar cəzalandırılmadıqca erməni təcavüzkarları susan deyil"

“Meşəli sakinlərinin beynəlxalq ictimaiyyətə müraciət etməyə haqları var. Çünki bu kənddə, eləcə də Azərbaycanın işğal altında olan torpaqlarında yaşamış sakinlər uzun illər erməni təcavüzü nəticəsində ağır bəlalar görüblər. Əlbəttə ki, bu gün Meşəli sakinlərinin etdiyi müraciət beynəlxalq normalara uyğundur. Təəssüf ki, belə hallara qarşı beynəlxalq təşkilatlar uzun illərdir laqeydlik göstərib. Onlar vaxtında bu faciələri düzgün qiymət verməyiblər. Ona görə də bugünkü gündə ermənilər harınlayıblar. Onlar nəinki Azərbaycan xalqına, bəşəriyyətə qarşı xəyanət yolunu tutublar”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib.

Onun sözlərinə görə, bu gün artıq yeni faktlar üzə çıxır: ”Əlbəttə ki, bunların hər biri öz cavabını almalı və bu faciələri törədənlər cəzalarını çəkməlidir. Vaqif Xaçaturyanın həbsi ilə bağlı erməni təcavüzünə məruz qalmış azərbaycanlıların müraciəti mütləq layiqli cavabını tapmalıdır. Digər cinayətlərlar da aşkar olunaraq həbs olunmalıdır. Əgər belə olmasa, haqq-ədalət öz yerini tapa bilməz. Nə qədər ki cinayətkarlar cəzalandırılmayıb erməni təcavüzkarları susan deyil. Onlar yeni müharibələr həvəsindədir”.



DEPUTAT ŞƏRH ETDİ



”Son günlərdəki hadisələr göstərir ki, ermənilər yenidən sərhədlərimizdə təxribat törətməyə, münaqişələri yenidən qızışdırmağa çalışır: ”Sözsüz ki, bu yolda öz havadarlarının imkanlarından istifadə edirlər. Amma əldə olunan faktlar və bugünün reallıqları Azərbaycanın xeyrinədir. Ədalət bizim tərəfimizdədir. Ona görə də Meşəli sakinlərinin beynəlxalq ictimaiyyətə müraciət etməsini doğru hesab edirəm. Düşünürəm ki, beynəlxalq ictimaiyyət bu müraciətlərə etinasız yanaşmayacaq. Beynəlxalq təşkilatlar ermənilərin nə qədər ağır cinayətlər törətdiyini dünya ictimaiyyətinə bəyan edəcəklər. Meşəli sakinlərinin başına gətirilənlər hər bir azərbaycanlının fəlakətidir”-, deyə o əlavə edib.

**Ləman Sərraf**



AFƏT

## Vardanyanın son nəfəsi

Rusiyanın Qarabağa atdığı uğursuz ”desantı” Ruben Vardanyan separatçı tör-töküntülərinin yanında itirilmiş ”güvənini” bərpa etmək üçün guya Prezident İlham Əliyevin Euronews telekanalına verdiyi mükəmməl müsahibəsi üzərində xal qazanmağa cəhd edib. Məhz bu baxımdan, sözün əsl mənasında, onun sərsəmləmələrini izləyib ürəkdən gülməmək mümkünsüzdür.

### Bu, sərsəm erməni ”məzlumkeşliyi” üzərində qurulmuş oyundur

Məsələn, Rubik öz təbirincə ”sübut” etməyə cəhd edib ki, İlham Əliyev müharibədəki qələbənin Onun siyasi həyatının missiyası olduğunu deməsi ilə guya Bakının heç bir sülhə hazır olmadığına eyham vurub (?!). Əslində isə bu, sərsəm erməni ”məzlumkeşliyi” üzərində qurulmuş oyundur və Vardanyanın özü də bilir ki, belə bir iddia ilə çıxış etmək kənardan izafi axmaqlıq kimi görünür...

Başqa tərəfdən, belə hiss olunur ki, Ruben Vardanyan sanki 2020-ci ilin 27 sentyabrına qədər bunkerdə oturub və yalnız həmin gün münaqişənin mövcudluğundan xəbərdar olub. Prinsipcə və nəzəri cəhətdən buna bənzər hal yaşana bilərdi. Misal üçün, Rubik Kremlin əli altında kirli pulların yuyulması ilə məşğul olarkən çətin ki, onu Ermənistan-Azərbaycan münaqişəsi maraqlandıra bilərdi. O, 1 saniyə də olsa belə bu barədə düşünməyib!

### Vardanyan bilməlidir ki...

Və Vardanyan çox gözəl bilir ki, sülhü nə əvvəllər, nə də sonra Ermənistan istəməyib. Bu gün də belədir. 2010-cu ilə və sonrakı illərə qədər Ermənistan dişinə qədər silahlanırdı və Bakı bəyan edirdi ki, belə davam etsə, səbir tükənəcək. Danışıqlar da nəticəsiz qalırdı ki, müharibə ehtimalı artırdı və bu ehtimalı da İrəvan yaradırdı. Məgər o bunu da bilmir? Əlbəttə ki, bilir, sadəcə, Azərbaycan Prezidentinin fikirləri ətrafında özünə xal toplamağa çalışır. Ancaq yenə də uğursuz...

Vardanyan bilməlidir ki, 2016-cı ilin aprelində baş vermiş 4 günlük müharibə də 44 günlük müharibənin açarı idi!

Beləliklə, fakt budur sülh istəyirsənsə müharibəyə hazırlaş prinsipi daim gündəmdə olub və Azərbaycan istədiyinə nail oldu. İndi isə sülh zamanı yetişib və onun çərənləmələri heç nəyi həll etmir.

### Qarabağdakı ermənilər Azərbaycan vətəndaşlığı almaqdan imtina edirlərsə...

Keçək Rubikin digər sərsəmləməsinə. O, iddia edir ki, sən demə, Bakı "99%"-lik Qarabağ ermənilərinə təklif edir ki, onlar ya etnik azlıq olduqlarını qəbul etməli, ya da bu regiondan getməlidirlər və bu da ”etnik təmizləmənin” anonsuymuş (?!)

Görəsən, bu saqqallı siyasətbaz niyə unudur ki, Qarabağdakı ermənilərin ”99 %-zi” məhz azərbaycanlılara qarşı törədilmiş müharibə cinayətləri, etnik təmizləmələr səbəbindən yaranıb?

Və nəhayət, ən əsas məsələ - əgər Qarabağdakı ermənilər Azərbaycan vətəndaşlığı almaqdan imtina edirlərsə, bu zaman onlar həmin regionda xarici vətəndaşlar kimi tanınacaqlar. Çünki onların hər birində Ermənistan pasportları var və işlərini bilavasitə Azərbaycanın miqrasiya xidmətindən keçirməli olacaqlar. Seçim qalır yenə də Qarabağ ermənilərinin özlərinə. Yəni, Azərbaycan ərazisində leqal qalmaları üçün bütün müvafiq prosedurlardan keçəcəklər. Yox, qanunsuz qalmağa cəhd edərlərsə, bütün dünyada qəbul olunduğu kimi-deportasiya və bir daha ölkəyə daxil olmamaq qanunu qüvvədə olacaq.

Lakin ən gülməlisi budur ki, bu, Vardanyanın sonuncu oyunbazlığıdır. O bağırır ki, kapitulyasiyanı onlar, yəni separatçılar deyil, Ermənistan edib. Və beləliklə, İrəvan bütün günahları Qarabağ separatçılarına, Qarabağ separatçıları da İrəvanın üstünə atırlar. Necə deyərlər, məzhəkə!

# İnformasiya savaşının qalibi



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

***Tarixin bütün dönəmlərində «güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur» fikri öz təsdiqin tapmışdır. Belə ki, bəşər tarixinin son onillikləri müharibələrlə dolu olduğu bir zamanda hələ heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı da vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxalq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir.***

Çünki bu gün Prezident İlham Əliyev müzəffər Ali Baş Komandan kimi həm hərb meydanında öz sözünü deyir, həm də siyasi lider kimi informasiya meydanında ölkəmizin mövqeyini ustalıqla izah və müdafiə edir, haqq səsimizi bütün dünyaya çatdırır. Dövlət başçımız dünyanın aparıcı kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələrində Azərbaycanın mövqeyini, atılan addımların məntiqini tam aydın şəkildə, səlis izah edir, düşmənin iddialarını əksarqumentlərlə yerindəcə ifşa edir.

Belə ki, iyulun 21-də Prezident İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışı və iştirakçıların suallarına cavabı Azərbaycan həqiqətlərinin, postmünaqişə dövrünün reallıqlarının dünya ictimaiyyətinə çatdırılması üçün zəngin mənbədir. Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlər müzakirə olundu. Bu günədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya gətirdi. Cənab İlham Əliyev bu mühüm addımı belə əsaslandırdı ki, ötən il burada, Şuşada Azərbaycanın media nümayəndələrinin birinci Forumu keçiriləndə bu tədbirdə iştirak etmədim. Prezident Administrasiyasına göstəriş verdim ki, gələn dəfə bu tədbiri beynəlxalq Forum səviyyəsində təşkil etmək lazımdır: "Bu, artıq baş verir və mən qərara aldım ki, gəlim burada iştirak edim. Mən bu tədbirdə çıxışçı kimi təqdim edilmişdim. Ancaq mən hesab etdim ki, burada uzun-uzadı çıxış etməyə ehtiyac yoxdur. Hesab etdim ki, bu sorğu-sual daha maraqlı olar."

Ölkə Prezidenti İlham Əliyev Forumda bir daha Azərbaycanın beynəlxalq aləmdə qazandığı sabitlik məkanı, birləşdirici aktor kimi nüfuzuna diqqət yönəltdi. "Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır" söyləyən dövlət başçısı bildirdi ki, Rusiya və ABŞ silahlı qüvvələrinin yüksək nümayəndələri, ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bunun ölkəmizə etimadın, etibarın göstəricisi olduğunu vurğulayan dövlət başçımız onu da qeyd etdi ki, belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir. Hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir: "Yəni, bu, o vaxt idi ki, rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə Azərbaycanda belə təmaslar potensial olaraq yenə də bərpa edilə bilər."

Eyni zamanda, dövlətimizin başçısının 49 ölkəni təmsil edən 150 xarici media nümayəndəsinin iştirakı ilə keçirilən Şuşa Qlobal Media Forumu çərçivəsində "Euronews" televiziyasına müsahibəsi əvvəlki müsahibələrində olduğu kimi yenə də yüksək intellekt, məlumatlılıq, natiqlik bacarığı, diplomatik məharət nümayiş etdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" telekanalına müsahibəsində Ermənistandakı ermənilərə mesaj haqda sualı cavablandırarkən deyib: «Mən heç zaman bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə belə sual verilir. Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik»,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirib ki, onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır: «Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik». Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı ki, Azərbaycan sülhün tərəfdarıdır və regionda baş verən bütün proseslərə təmkinlə yanaşır.

Vətən müharibəsindən sonra regionda vəziyyətin mürəkkəb olmasının səbəbi Ermənistanın üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq üzərinə düşən vəzifələri yerinə yetirməməsidir. Ermənistanın öhdəsinə düşən vəzifələri icra etməkdən boyun qaçırması vəziyyətin daha da mürəkkəbləşməsinə və əngəllərə yol açır. Regionda təxribat xarakterli proseslər baş verir və bunlar kifayət qədərdir. Əslində, bu addımlar ona hesablanıb ki, sülh danışıqları pozulsun və nəticəsiz qalsın. Azərbaycan tərəfi sülhə və təhlükəsizliyə təhdid olan bütün təxribatları pisləyir, bunların aradan qaldırılması üçün bütün müstəvilərdə səylərini davam etdirir. Digər tərəfdən, dövlətimizin başçısı tərəflər arasında sülh sazişinin imzalanacağına ümid etdiyini də bildirdi və bunun üçün Ermənistanın siyasi rəhbərliyini tutduğu destruktiv mövqedən yayınmağa çağırdı.

Azərbaycan Prezidenti Ermənistan ictimaiyyətinə üz tutaraq bildirdi ki, rəhbərləri onları 30 il ərzində aldatmağa çalışıb, əsl həqiqəti gizlədiblər. Real prosesləri diqqətə çatdıran dövlətimizin başçısı bir daha vurğuladı ki, Qarabağda yaşayan erməni əhali manipulyasiyanın girovu olmağa son qoymalıdırlar. "Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm», – deyən Prezident İlham Əliyev Azərbaycan dövlətinin onlara normal həyat təklif etdiyini bildirdi.

Dövlətimizin başçısının "Euronews" televiziyasına müsahibəsində qeyd etdiyi kimi, Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşları hansısa qondarma və özlərini "parlamentari", "nazir" elan etmiş şəxslərin sözü ilə oturub dursalar, onların aqibətləri daha acınacaqlı olacaq. Çünki bu şəxslərin artıq Azərbaycan daxilində heç bir səlahiyyəti yoxdur, onlar çox yaxşı bilirlər ki, onları nə Ermənistanda, nə Azərbaycanda qəbul etməyəcəklər. Ona görə belə cəhdlərlə özlərini qorumağa və insanlardan girov kimi istifadə etməyə çalışırlar.

Prezident İlham Əliyev "Euronews" kanalına müsahibəsində "İlham Əliyevin missiyası nədədir – müharibədə qalib gəlməkdə, yoxsa Ermənistanla sülhün yaradılmasında" sualına cavabında bildirib ki, biz müharibədə qalib gəldik, biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik: «Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik».

Prezident müsahibəsində: "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi»,-deyərək vurğulayıb ki, müharibə də uğurla başa çatdı: «Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan. Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu, bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yol idi. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz öz torpağımızda vuruşduq. Biz Ermənistanın torpağında savaşmadıq və biz Zəfər çaldıq. Beləliklə, bu, artıq tamamlanmış bir nömrəli missiya idi. İndi isə biz sülh haqqında danışırıq»".

Göründüyü kimi, müsahibədə Prezident İlham Əliyev Ermənistanı həm sülhə dəvət edir, həm ona havadar olan dairələrə mesaj ünvanlayır, həm də Azərbaycanın zəruratlərdən irəli gələcək addımlarını sadalayır. Azərbaycan Prezidenti "Euronews" telekanalına müsahibəsində Şarl Mişelin iştirakı ilə Ermənistanla danışıqlara dair suala cavabında bildirib ki, bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü idi: «O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbiidir».

Dövlətimizin başçısı onu da bildirib ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir: «Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Sülh Təşəbbüsü çərçivəsində də görüşürük. Sonuncu dəfə bu görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik».

Bir sözlə, Prezident İlham Əliyevin müsahibəsində söylədiyi fikirlər müxtəlif məqamları özündə ehtiva edən sualların Ermənistana və ona havadarlıq edən dövlətlərə ünvanlanması ilə diqqətdə oldu. Və hər bir sual özündə gələcəklə bağlı müəyyən məsələlərin müzakirəsini aktuallaşdırır. Beləliklə, mətbuat konfransları Azərbaycan Prezidentinin güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğunu bir daha göstərdi. Ən qürurverici odur ki, mətbuat konfransında KİV nümayəndələri, eləcə də bütün dünya mətbuatında dövlətimizin başçısının sualları yüksək diplomatik məharət, natiqlik nümayiş etdirərək, səlis, təfərrüatlı, dəqiqliklə, məntiqlə, tam əsaslandırılmış şəkildə, özü də müxtəlif dillərdə cavablandırması, bir çox önəmli mesajlar verməsi Prezident İlham Əliyevin nə qədər uzaqgörən, müdrik bir siyasi xadim olduğunu bir daha təsdiqlədi.

Bax, budur Liderlik! Necə də qürur duymayasan. Güclü ölkənin güclü, qətiyyətli lideri olmaq budur. Bu uğurlar, əlbəttə ki, bu, son 20 illik prezidentlik fəaliyyəti nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində baş verdi. Hər zaman ilklərə imza atan Prezident İlham Əliyev "Euronews" telekanalına müsahibəsi ilə dövlətimizin başçısı daha bir ilkə imza atdı..

Beləliklə, Prezident İlham Əliyevin keçirdiyi mətbuat konfransı Azərbaycan həqiqətlərinin bir daha dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımdan çox uğurlu oldu. Azərbaycan Prezidenti bir daha dünyanın diqqətini özünə cəlb etdi. Bu mətbuat konfransı informasiya cəbhəsində Azərbaycanın mövqeyini daha da gücləndirdi.

Bir sözlə, həm hərb meydanının, həm də informasiya savaşının sərkərdəsi cənab Ali Baş Komandan ön cəbhədə döyüşən əsgər və zabitlərimizə öz əmrlərini verərək onlardan qələbə qazanmağı tələb etdiyi zamanda, eynilə dünyanın tanınmış KİV-lərinə müsahibə verərkən həm də yerli media nümayəndələrinə informasiya savaşında məğlub olmamaq tələbini göstərməklə bir daha bütün dünya İlham Əliyevin qətiyyətinin, yüksək liderlik keyfiyyətlərinin, siyasi müdrikliyinin və uzaqgörənliyinin şahidi oldu. Və bu gün məhz qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir və Paşinyan və Ermənistan yeni reallıqları qəbul etməli, həmin reallıqlarla barışmalıdır. Çünki Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq! Hər kəs həqiqəti bilməli və görməlidir. Çünki bu xalq öz qalib lideri İlham Əliyevlə yenilməzdir. Müzəffər rəhbər İlham Əliyev də onun ətrafında sıx birləşmiş xalqı ilə güclüdür.

***Ekoloji təhlükəsizliyin təmin olunması məqsədi ilə ətraf mühit davamlı şəkildə mühafizə edilməli, çirklənməsi də minimuma endirilməlidir. Eyni zamanda, təbiətin mühafizəsi gündən-günə təkmilləşdirilməli, hətta təbii sərvətlərdən belə səmərəli şəkildə istifadə edilməlidir və təsadüfi deyil ki, bütün bunlar Azərbaycan dövlətinin ekoloji siyasətinin əsasını təşkil edir. Məhz bu siyasət ətraf mühitin sağlamlaşdırılması məqsədi ilə ardıcıl işlərin həyata keçirilməsini tələb edir.***




# Ekologiya və ətraf mühitin mühafizəsi diqqət mərkəzindədir

Bilirik ki, müstəqillik dövründən əvvəl ekologiya və ətraf mühitin mühafizəsi demək olar ki, arxa planda olub. Sovetlər ittifaqı dövründə Azərbaycan ərazisində ekologiyanın vəziyyəti, ətraf mühitin çirklənməsi həmin ölkə hakimiyyətini qətiyyən maraqlandırmırdı. Azərbaycan ərazilərində qurulan, fəaliyyət göstərən zavod və fabriklərin daha çox məhsul istehsal etməsi, daha çox gəlirlə, rentabelli şəkildə işləməsi o zaman maraq dairəsində olub. Həmin zavod və fabriklərin iş prosesi samanı tullantılarının hansı həddə olması, təbiətə onların nə dərəcədə zərər vurması, ətraf mühiti çirkləndirməsi sovetlər ölkəsi üçün qətiyyən müzakirə mövzusu belə olmayıb və həmin dövrdə istehsal müəssisələrinin təbiətə, təbii ki, nəticə etibarı ilə azərbaycanlılara ancaq zərəri dəyirdi. Belə bir vəziyyətdə ətraf mühitə vurulan ziyan Azərbaycanın ekoloji mühitini nəzərəçarpacaq dərəcədə pisləşdirmişdi və ətraf mühitin, təbiətin sağlamlaşdırılmasına böyük ehtiyac duyulurdu.

Müstəqilliyimiz yenidən bərpa edildikdən, eləcə də xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin, təbiətin, ekoloji vəziyyətin yaxşılaşdırılması, sağlamlaşdırılması istiqamətində tədbirlər görülməyə başlanıldı. Ekoloji şəraitin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində ardıcıl işlərin aparılması prioritet məsələyə çevrildi, paytaxtın, eləcə də rayonların yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına start verildi. Yeni dövr üçün ekoloji strategiya məhz ekoloji siyasətə dair imzalanan “Azərbaycan Respublikasının Ekoloji Konsepsiyası” əsasında müəyyənləşdirildi. Bunun ardınca da, əvvəlcə 1998-ci ildə “Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı” qəbul edildi, sonra 1999-cu ildə Milli Məclisin qəbul etdiyi “Ekoloji təhlükəsizlik haqqında” qanun təsdiqləndi və 2000-ci ildə isə “Ətraf mühitin mühafizəsi haqqında” və “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” daha iki qanun qəbul olundu. Ekoloji problemlərin həllinin dövlətin əsas diqqət göstərdiyi istiqamətlərdən olduğu 2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması ilə öz təsdiqini tapdı.

Ekologiyanın qorunması və ətraf mühitin mühafizəsi bu gün də Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərini təşkil edir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyev bütün sahələr kimi ekologiya və ətraf mühitin mühafizəsinə ciddi diqqət yetirir və göründüyü kimi, bu istiqamətdə məqsədyönlü addımlar atılır. Məhz cənab İlham Əliyevin Azərbaycan Prezidenti olaraq ölkəyə rəhbərlik etdiyi son illər ərzində ekologiya, təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair bir sıra normativ hüquqi aktların qəbul edilməsi, təbiətin qorunması və sağlamlaşdırılması sahəsində mühüm praktiki işlərin görülməsi qeyd olunan məqsədyönlü addımların atıldığını isbatlayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 28 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı”nda bir çox tələblərlə yanaşı, meşələrin seyrəkləşməsinin, torpağın erroziyasının, meşə massivlərinin azalmasının qarşısının alınması barədə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu və həmin tədbirlər sayəsində görülən işlər də göz önündədir. Göz önündə olan həmin işlər dövlətimizin, dövlət başçımızın ekologiyaya, ətraf mühitin mühafizəsinə, təbiətin qorunmasına həssas yanaşdığını təsdiq edir. Azərbaycan dövləti və cənab Prezident İlham Əliyevin ekologiya və ətraf mühitin mühafizəsinə nə qədər önəm verdiyi 2010-cu ilin Azərbaycanda “Ekologiya ili” elan olunması ilə bir daha öz təsdiqini tapdı və təsadüfi deyil ki, həmin il Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması baxımından dönüş ili kimi tarixə yazıldı.

“Ekologiya məsələləri hər bir ölkə üçün, hər bir vətəndaş üçün vacib olmalıdır. Bu, insanların sağlamlığıdır. Sağlam ekoloji mühit, sağlam hava, təmiz su-bütün bunlar insanın həyatı üçün ən əhəmiyyətli məsələlərdir”, - deyə cənab Prezident İlham Əliyevin ekoloji problemlərə həsr olunmuş müşavirələrdə qeyd etməsi ölkə rəhbərinin bu məsələyə, ekologiyaya, ətraf mühitin mühafizəsinə nə dərəcədə diqqət və qayğı ilə yanaşdığından irəli gəlir. Azərbaycanın ümumilikdə, 2020-ci ilə kimi prioritet istiqamətlərini müəyyən edən, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən, ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə dövlətin ekoloji siyasətinin əsas istiqamətləri kimi götürülüb. Ekoloji siyasətin əsas istiqamətləri üzrə qarşıya qoyulmuş hədəflərə çatmaq üçün “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii sərvətlərdən səmərəli istifadəyə dair 2016-2020-ci illər üçün Dövlət Proqram”ında ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə ilə bağlı prioritet istiqamətlər müəyyənləşdirilərək, həyata keçiriləcək vəzifələr əks olunub. Bu vəzifələrin də öhdəsindən lazyiqincə gəlinib və bütün bunların nəticəsidir ki, son illərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində kifayət qədər işlər görülüb. Son illər ərzində minlərlə hektar sahədə meşəbərpa tədbirləri, o cümlədən meşə əkini və səpini aparılıb, nəticədə minlərlə ağac əkilib. Hazırda ölkədə milli parkların, dövlət təbiət qoruqlarının və dövlət təbiət yasaqlıqlarının sayı artmaqdadır, hansıki bu, məhz ətraf mühitin, təbiətin mühafizəsinə, ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına hesablanıb.

Azərbaycanda ekologiyanın qorunması və ətraf mühitin mühafizəsi istiqamətində görülən tədbirlərin beynəlxalq təşkilatlar tərəfindən təqdir edilməsi də təsadüfi sayıla bilməz. ABŞ-ın Yel və Kolumbiya Universitetləri tərəfindən 2016-ci ilin yanvar ayında hazırlanan Ekoloji Fəaliyyətin Effektivliyi İndeksi üzrə qiymətləndirmənin nəticələrinə əsasən, mövcud ekoloji vəziyyətə görə Azərbaycan dünya ölkələri arasında 100 ballıq qiymətləndirmə sistemi üzrə 31-ci sırada qərarlaşıb. Məhz bu qiymətləndirmənin nəticələrinə, reytinq sıralanmasına, qərarlaşmasına görə ölkəmizin Yaponiya, Belçika, Hollandiya, İsrail kimi dünyanın bir sıra qabaqcıl və inkişaf etmiş ölkələrindən öndə olduğu bəlli olub. Ekoloji Fəaliyyətin Effektivliyi İndeksinə əsasən meşələrlə bağlı istiqamətdə qiymətləndirmə üzrə isə Azərbaycanın 180 ölkə arasında 5-ci yerdə qərarlaşması isə daha qürurverici məqam sayılır və bu da ekoloji məsələlərə, təbiətin və ətraf mühitin mühafizəsinə dövlətimizin, dövlət başçımızın nə dərəcə diqqət ayırdığını bir daha aydın şəkildə göstərir.

Sözsüz ki, ekolguyanın qorunması, ətraf mühitin mühafizəsi təkcə dövlətin, dövlət başçısının, dövlət orqanlarının deyil, eyni zamanda cəmiyyətin də maraq dairəsində olmalıdır. Çünki insanlar bilməlidirlər və bilirlər ki, təbiətin, ətraf mühitin qorunmaması, onun çirklənməsi nəticə etibarı ilə ekoloji problemlərə, ekoloji tarazlığın pozulmasına gətirib çıxara bilər və bu da bütövlükdə insan cəmiyyəti üçün təhlükəli vəziyyətin yaranması deməkdir. Qlobal istiləşmə, təbiətdə su ehtiyatlarının tükənməsi və digər məsələlər məhz ekoloji tarazlıqla bağlı olan məsələlərdir və bu baxımdan insan cəmiyyəti bunun qarşısını almaq üçün əlindən gələni əsirgəməməlidir. Sevindirici haldır ki, ümumilikdə cəmiyyətimiz bu məsələyə də çox ciddi yanaşır və təbiətin, ekologiyanın qorunmasına, təbiətin mühafizəsinə qətiyyən laqeyid deyil. Elə ekoaktivistlərin dinc aksiya keçirmələri də bu baxımdan təsadüfi deyildi, ekologiyanın çirklənməsinə qarşı Azərbaycan cəmiyyətinin haqq səsini ucaltması idi. Cəmiyyətimiz digər sərvətlərimizi talan edən, yerini də viranə qoyan ermənilərin filiz yataqlarımızda da analoji vəziyyətə səbəb olan əməllərinə qarşı çıxmaqla, ətraf mühitin qorunmasının bizim üçün nə dərəcədə dəyərli olduğunu bir daha bəyan etdi ki, bu, hər kəs üçün bir dərs sayılır.

Ermənistan tərəfinin ərazilərimizi işğal etdiyi, eləcə də işğal altında saxladığı dövrdə ermənilərin bizə məxsus olan torpaqlarda ekoloji terror törətdiyi dünya ictimaiyyətinə bəllidir. Bəllidir ki, ərazilərimizdə qanunsuz şəkildə məskunlaşan ermənilər fauna və floraya nə qədər ziyan vurublar. Su hövzələrimizə, meşələrimizə, yaşıllıqlarımıza mütəmadi olaraq ziyan vuran, suyu çirkləndirən, ağacları qırıb daşıyan, yaşıllıqları qıran, yandıran, məhv edən ermənilər təbiətdə həm bitgi örtüyünə, həm də heyvanat aləminə zərər yetiriblər və bunun sayəsində ekoloji tarazlığın pozulmasına zəmin yaradıblar. Eyni zamanda təbii sərvətlərlə zəngin olan Azərbaycan torpaqlarını işğal etmələrindən istifadə edərək, əlvan metal, filiz yataqlarımızı qanunsuz istismar edən ermənilər həmin yataqlarda da ekologiyaya zidd hərəkətlərə yol verməklə təbiəti çirkləndirmişlər ki, cəmiyyətimiz bu məsələ ilə də barışmadığını ekoaktivistlərin aksiyası ilə bir daha dünyaya bəyan etdi. Bəyan etdi ki, əvvəla təbiətin, ətraf mühitin çirkləndirilməsinə, ekoloji problemlərin yaradılmasına biz yol verməmişik və Azərbaycan ekologiyanın, ətraf mühitin, təbiətin qorunduğu, mühafizə edildiyi ölkədir və budan sonra da ölkəmizdə ekoloji məsələlərə həssas yanaşılacaq.

***İnam Hacıyev***

# “Mənim yaşadıqlarıma nəinki qadın, heç kişi belə dözməzdi”

***Xocalı soyqırımı tariximizin ən faciəli səhifələrindən biridir. Soyqırımdan əvvəl Xocalının əhalisi yeddi min nəfərə yaxın idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının dəstəyi ilə silahsız və müdafiəsiz şəhərə hücuma keçdi.***












Bir gecədə Xocalı yerlə-yeksan edilib, 613 nəfər qətlə yetirilib, 487 nəfər şikəst olub, 150 nəfərin taleyi hələ də məlum deyil. 1275 dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək dəhşətli işgəncələrə və əziyyətlərə məruz qalıblar. Xocalı əsirlərindən biri olan Dürdanə Ağayevanın SİA-ya müsahibəsini təqdim edirik:

**- Qətliam gecəsini necə xatırlayırsınız? Necə oldu ki, əsir düşdünüz?**

- İllər keçsə də, Xocalı faciəsi yaddaşlardan silinməyəcək. O gecə hər zaman bizim yaralı yerimiz olaraq qalacaq.

Xocalı faciəsinə qədər Xocalı rabitə qovşağında telefonçu işləyirdim. Hər dəfə zəng gələndə dəstəyi götürüb “üçüncü, buyurun” deyirdim. İndiyə qədər də rabitə sistemində çalışıram.

O gecə, fevralın 25-dən 26-na keçən gecə bütün şəhərə sükut çökmüşdü. O sükut saat 23:00-da pozuldu. Xocalıya ilk olaraq tank və topdan atəş açdılar. Xocalı dağıldı, evlər yandı, yerlə-yeksan oldu. Əhali məcbur Qarqar çayından keçib üzü Ağdam tərəfə irəliləməyə başladı. Xocalılar 5 il atəş altında yaşadılar, ancaq həmin gün Xocalını qoruya bilmədilər. Çünki Xocalıda hərbi texnika yox idi. Xocalıya hücum edən isə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı və erməni silahlı dəstələri idi. O gecə şəhəri qarət etdilər, xocalılara qarşı soyqırımı törətdilər. İnsan axını Xocalının Çətik meşəsinə axışdı. Buz kimi Qarqar çayını keçərək qarın üstündə yerimək insanları məhv etdi.

Həmin gecə qaranlıq yer yox idi. Evlərin və silahların işığı qaranlığı yarmışdı. Səhər saat 8-ə qədər Xocalıda döyüş getdi. Xocalılardan silah olmasa belə mərd oğullarımız çalışdı ki, qız-gəlinləri, körpələri qorusunlar. Bizə dəstək gəlmədiyi üçün ərənlərimiz məcburiyyət qarşısında qalıb Xocalını döyüşərək tərk etdilər.

**- Əsirlik dövründə hansı işgəncələrə məruz qaldınız?**

- Biz əsir götürüləndə 6-7 nəfər idik. Bizi Əsgəran polis idarəsinə apardılar və zirzəmiyə saldılar. Gördüm ki, orada 50-60 uşaq və qadın, yüzlərlə Xocalı kişiləri var. Rabitəçi olduğumu bildikdən sonra mənə işgəncə verməyə başladılar. 7-8 saat soyuq suda saxladılar, zəncirlə, kəmərlə, dubinka ilə döydülər, əllərimi qapının arasında qoyub sıxdılar, mənə növbənöv işgəncə verdilər. Mənim o yaşadıqlarıma nəinki qadın, heç kişi belə dözməzdi. İnanın ölmək istəyirdim, daha bu ağrıya, aclığa, soyuğa dözə bilmirdim, elə bildim ürəyim dayanır. Hiss etdim ki, nəbzimi yoxladılar, onun vurmadığını hesab edəndə isə məni çılpaq soyundurub küçəyə, düz zibil qutusuna atdılar.

**- Əsirlikdən necə xilas oldunuz?**

- Allahverdi Bağırovun ruhu şad olsun. O, 8 gündən sonra bizi ermənilərin əlindən aldı, işgəncələrdən qurtulduq. Bu gün onun sayəsində yaşayıram. Bir ömür mən onun ruhuna duaçıyam. Artıq səkkizinci gün məni əsirlikdən buraxdılar. Vitali Balasanyana üz tutdum, ona əsirlikdə kifayət qədər iztirab keçirdiyimi deyib xahiş etdim ki, qardaşımla birgə getməyimə icazə versin. Təəccüblü də olsa, o, etiraz etmədi. Karo Elşadı azadlığa çıxmazdan bir gün əvvəl yanıma gətirdi. Qardaşımı qucaqlamağa başladım, ayaqlarından öpdüm, Karo bunu görüb məni onun gözünün qabağında təpiklədi. Qardaşım heç nə edə bilməyəcəyini anlayırdı, gözlərindən yaş axırdı. O, məndən bir yaş balaca idi. Elə həmin gecə ilk dəfə olaraq rahat yuxuya getdim.

Səhəri gün bizi maşına mindirib Ağdama apardılar, çox həyəcan keçirirdim. Axı mən nəhayət anamı, qardaşlarımı və nənəmi görə biləcəkdim. Əvvəl anam heç məni tanımadı, mənə müraciət edərək ”Mənim oradakı qızım necədir?” sualını verdi. Mən isə göz yaşları içində ona ”Mən elə sənin qızınam” dedim.

**- Bəs əsirlikdən sonra səhhətiniz necə oldu?**

- Mən bugünkü gündə də Xocalı faciəsindən sonrakı əsirlik zülmlərinin altını çəkirəm. Şəkər xəstəliyi, nevroz, ürək-damar xəstəliyim var. Hazırda onurğam dəmirdən ibarətdir. İki ildir, ankoloji xəstəlikdən əziyyət çəkirəm. Vətənində keşiyində duran igid oğullarımız, dövlətimiz sağ olsun. Onların sayəsində biz bu gün qalib dövlətik. Vaxt gələcək ki, bütün Azərbaycan tamamilə ermənisiz olacaq. Mən son nəfəsimə qədər Xocalıdan, erməni vəhşiliyindən danışmağa hazıram. Necə ki, indiyədək dünyanı gəzib öz kitabımı tanıtdım, bundan sonra da davam edəcəm.

- 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunma xəbərini necə qarşıladınız?

- 2020-ci ildə 44 günlük müharibə başlayanda mən çox stress keçirdim. Mənim qorxduğum şey itkinin olmasıdır. Düşündüm ki, 35 ildə biz 25 mindən çox şəhid vermişik. 44 günlük müharibənin hər günü gözyaşı tökdüm. Hər şəhid xəbəri gəldikcə elə bil ürəyim parçalanırdı. Qorxdum ki, yenə erməniyə məğlub olarıq və gücümüz çatmaz. Amma düşündükcə Azərbaycanın güclü Ali Baş Komandanı və güclü ordusu, qeyrətli oğulları var, onda qələbəyə ümidim artırdı. Polad Həşimov şəhid olanda isə bir başqa sarsıntı keçirdim. Mən Murovdağda əsgərlərlə görüşə gedəndə onun çəkdiyi sudan içmişdim. Doğrudur, üzünü görməsəm belə adını çox eşidirdim.

44 günlük müharibə bizə qələbəni və torpaqlarımızı qazandırdı. Şəhidlərimizin qanı yerdə qalmadı. Amma bəzi kəndlərimiz var ki, hələ də azad deyil. O yerlərdə şəhid olan insanların ruhu hələ rahat deyil. Lakin Prezidentimizin apardığı siyasət nəticəsində biz o yerlərə də qayıdacağıq. Çünki ora bizim dədə-babalarımızın yurdudur.

***Ləman Sərraf***

***“Qarabağda Azərbaycan dövlətinin mənafelərinin ziyanına baş verən bütün hərbi xarakterli hadisələr erməni separatizminə kənardan verilən siyasi dəstəklərin birbaşa nəticəsidir. Əgər Qarabağda erməni separatizminə dəstək olmasa Azərbaycan dövlətinin mənafeyinə zidd hərbi xarakterli təzahürlər ortaya çıxa bilməz. Azərbaycanın ərazi bütövlüyünün ermənilər tərəfindən hələ də qəbul edilməməsi, Qarabağa qanunsuz silah daşınması, separatçı qurumun öz mövcudluğunu saxlaması dövlətimizin mənafeyi əleyhinə olan faktorlardır. Əlbəttə ki, erməni separatizminə verilən dəstəyin müxtəlif mənbələri var”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.***

# “Qarabağdakı separatizmə xarici dəstək dayandırılmalıdır”



Onun sözlərinə görə, Qarabağdakı separatçılar ilk növbədə Ermənistan, bundan əlavə Rusiya hakimiyyətindən siyasi dəstək alırlar: “Bu dəstək isə son nəticədə hərbi dəstəyə çevrilir və Qarabağın ərazisinə qanunsuz silah daşınması baş verir. Həmin silahların daşınmasında rus sülhməramlıları bu və ya digər dərəcədə iştirak edir, hətta onları himayə edirlər. Dəfələrlə görmüşük ki, silah daşıyan konvoylar, avtomobillər sülhməramlıların müşayiəti altında Xankəndinə gedir. Qarabağ separatizminə həm də Fransa tərəfindən siyasi dəstək verilir. Artıq bizə bəllidir ki, Fransa hökuməti Ermənistana silah satılmasının qanuniləşdirilməsi yönündə iş aparır.

Qeyd edim ki, Qarabağdakı separatizmə Hindistandan da müəyyən siyasi dəstək verilir. Elə bunun nəticəsidir ki, Hindistan da Ermənistana silah satılması ilə bağlı məsələləri müzakirə etməkdə və həyata keçirməkdədir”.

A.Quliyev sözlərinə davam edərək bildirib ki, bütün bunların qarşısını almaq üçün ilk növbədə həmin separatizmə xaricdən gələn dəstək dayandırılmalıdır: “Bu istiqamətdə Azərbaycan dövlətinin fəaliyyəti qənaətbəxşdir. İndiyədək Qarabağ separatizmi dünyada güclü şəkildə dəstəklənirdisə, getdikcə bu siyasi dəstəyin miqyası aşağı düşməyə başlayır. Təbii ki, siyasi dəstək zəiflədikcə hərbi dəstək də öz növbəsində zəifləyəcək. İkincisi, Azərbaycan dövləti lazımi addımı ataraq separatçıları demək olar ki, lokallaşdırmağa nail olub. Bu gün qətiyyətlə hesab etmək olar ki, Qarabağdakı separatizmin 95% ələqələri artıq Azərbaycan dövlətinin nəzarəti altındadır. Bu lokallaşdırma 100%-ə çatdırılsa, artıq Qarabağda dövlətimiz əleyhinə hərbi xarakterli addımların qarşısını tam şəkildə ala biləcəyik. Ümidimiz var ki, yaxın gələcəkdə buna nail olacağıq”.

# AXCP yenidən parçalana bilər

ANALİZ

***Müxalifət liderləri arasında çəkişmələr yalnız müxalif partiyalar arasında deyil, həm də partiyaların daxilində də baş verməkdədir. Bu da bir sıra müxalif təşkilatların sıradan çıxmasına yol açır. Lakin xarici qaranlıq dairələrin göstərişlərini əsas götürən müxalifət liderləri dikbaşlıq edib, üzlərinə söyən funksionerləri yeniləri ilə əvəzləməklə partiyaların ömrünü uzatmağa çalışırlar. Lakin AXCP-nin Gəncə, Nərimanov, Ağsu və Quba rayon təşkilatlarında baş verən qalmaqallar, eləcə də partiyanın MNTK sədri Aydın Əliyevin və Ali Məclis üzvü Yadigar Sadıqlının açıq şəkildə Əli Kərimliyə meydan oxumaları onu göstərir ki, ikinci, üçüncü tip şəxslərin kollegial orqanlara gətirilməsi deyil, bütövlükdə, idealogiya dəyişməli, müstəqil və demokratik idarəetmə sistemi qurulmalıdır.***



Hazırkı müxalifət liderlərinin və funksionerlərinin siyasi imici həddən artıq korlanmış durumdadır. Bir qədər əvvəl də bəzi partiya sədrləri yeni dəyişikliklərə can atdılar. Hətta bu istiqamətdə müzakirələr də apardılar. Ancaq partiya sədrləri arasında aparılan müzakirələrin nəticəsiz qalması, düşərgə daxilində proseslərin istiqamətinin dəyişməsinin mümkün olmadığını təsdiqləyir. Yəni, orbitindən çıxan partiyalar daxili qarşıdurmaları sakit, sivil məcraya gətirmək mümkün deyil. Müxalifət qazanının dibini yalayan ekspertlər də etiraf edirlər ki, ciddi iradə ortaya qoyub, dəyişikliklərə gedilməsə müxalifət partiyaları daxilində qeyri-müəyyənliyə gətirib çıxaran anormal vəziyyət düşərgədə ciddi problemlərin yaranmasına gətirib çıxaracaq. Demək olar ki, hazırkı məqamda ən təlatümlü və parçalanmaya real partiya Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-dir.

### AXCP təkrar qeydiyyat üçün Ədliyyə Nazirliyinə saxta imzalar təqdim edib

Daxili böhranlı durumun ağır olması fonunda təkrar qeydiyyata alınmaq üçün lazım olan imzaları Ədliyyə Nazirliyinə təqdim edə bilməməsi AXCP-nin vəziyyətini daha da ağırlaşdırıb. "Siyasi pariyalar haqqında" qanuna görə, siyasi partiyalar təkrar qeydiyyatdan keçməli və bu zaman Ədliyyə Nazirliyinə 5 imza təqdim etməlidir. Rəsmi məlumata görə, 27 siyasi partiya üzvlərinin siyahısını nazirliyə təqdim edib. Bildirilib ki, "Siyasi partiyalar haqqında" Qanuna əsasən, partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması zamanı onların bəzilərində qüsurlar, o cümlədən – üzvləri olmayan, vəfat etmiş şəxslərin reyestrə daxil edilməsi, bəzi şəxslərin adlarının təkrarlanması halları aşkarlanıb. Nöqsanlarla bağlı partiyalara məlumat göndərilib, reyestrdə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün 30 gün vaxt verilib. Böyük, aparıcı partiya olduğunu iddia edən AXCP funksionerləri boş sözlərdən başqa fikir irəli sürmədiklərini nümayiş etdirib. Bəlli olub ki, partiyanın Ədliyyə Nazirliyinə təqdim etdiyi 5315 nəfər üzvün 2497 nəfər barədə məlumatlar (adı, soyadı, ata adı, doğulduğu tarix) düzgün göstərilməyib. Həmçinin aşkarlanıb ki, 119 nəfərin başqa partiyaların üzvləridir və 59 şəxs barədə məlumatlar təkrarlanıb, 609 nəfər isə, ümumiyyətlə, AXCP üzvü deyillər. Üzə çıxarılan fakt ondan ibarətdir ki, Ə.Kərimli və onun ətrafı imzaları saxtalaşdırmağa cəhd ediblər. Necə ki, saxta, yalan və böhtan dolu məlumtlarını xarici ağalarına göndərməklə, onları inandırmağa çalışıblar.

### AXCP-də Ə.Kərimliyə qarşı narazıların sayı artır

Xarici dairələr dağıdıcı müxalifətlə eyni mövqedən çıxış etdiyi üçün təqdim edilən yalan məlumatları həqiqət kimi dəyərləndirib qəbul ediblər. Azərbaycanın dövlət qurumları isə onları ifşa ediblər. Bu ifşa təbii ki, AXCP-nin sonu olacaq. Daha doğrusu, sıravi beş-üç nəfərdən ibarət olan cəbhəçilər yalan və saxtakarlığın hökm sürdüyü AXCP-də qalmağı özlərinə təhqir hesab edərək partiyadan ayrılacaqlar. Nəzərə almaq lazımdır ki, AXCP-də onsuz da vəziyyət ağırdır. Bəzi partiya funksionerləri sıravi üzvlərlə həmrəylik nümayiş etdirərək, Ə.Kərimlinin istefasını tələb edirlər. AXCP-nin keçmiş Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyevin qurultayın saxta olması, partiya nizamnaməsinin pozulması ilə sədr seçilmiş Əli Kərimlini məhkəməyə verəcəyi barədə səs yazısı yayılıb. Aydın Əliyevin qurultaydakı çıxışına aid səs yazısında bildirir ki, qurultay tamamilə saxta sənədlər əsasında təşkil olunub. Rayon və şəhər təşkilatlarında konfranslar keçirilməyib, qurultaya nümayəndələr tapşırıq əsasında seçilib. Aydın Əliyevin bu səs yazısı bir daha sübut edir ki, AXCP-nin qurultayı saxtakarlıqla təşkil olunub. Onun sədr seçilməsi isə partiyanın nizamnaməsinin pozuntusudur. Vəziyyətin ağır məqamında üzə çıxan rüsvayçı faktlardan biri də ondan ibarətdir ki, Əli Kərimli AXCP Gəncə şəhər təşkilatının sədri Bəxtiyar Yusubovu özünün şəxsi ehtiyaclarının ödənilməsi üçün pul diləndirirmiş. Təşkilat sədri də pulları yığdıqdan sonra faizə buraxıb qazanc əldə edirmiş. Bu hadisənin üstünün açılmasından sonra AXCP-də Ə.Kərimliyə qarşı narazıların sayı artıb. Yaxın günlərdə onun sədrliynə xitam verilməsi üçün partiyanın genişləndirilmiş toplantısı keçiriləcək. Hər halda AXCP-dəki adının çəkilməsini istəməyən mənbə belə dedi.

***İ.ƏLİYEV***

# "Nar" şəhid övladları üçün təşkil olunan "YAŞAT" Düşərgəsinə dəstək oldu



**"Nar" "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən üçüncü "YAŞAT" düşərgəsində iştirak edib. "Nar"ın da dəstəkçilərindən olduğu layihənin əsas məqsədi torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid övladlarının yay tətillərinin səmərəli keçirilməsinə və onların şəxsi inkişaflarına dəstək olmaqdır.**

Mobil operator düşərgənin 3-cü həftəsində 40-dan çox iştirakçı üçün Diksiya Akademiyası ilə birgə Azərbaycan dilində səlis nitq bacarıqları üzrə interaktiv təlim təşkil edib, uğurlu çıxışların ən vacib elementləri öyrədilib. Təlimin sonunda iştirakçılara "Nar" tərəfindən dəyərli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, "Nar" şəhid övladlarının təhsilinə dəstək istiqamətində müxtəlif təqaüd proqramları həyata keçirmiş və sosial layihələrə müəlliflik etmişdir. Layihələr haqqında daha ətraflı məlumatı http://nar.az/projects səhifəsindən əldə edə bilərsiniz.

**"Nar" haqqında:**

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Paşinyanın söylədikləri erməni riyakarlığından başqa bir şey deyil"



***"N.Paşinyan bu günlərdə növbəti dəfə Azərbaycanla sülhə nail olmaq üçün əlindən gələni edəcəyini bəyan etdi. Bundan əvvəl- "sülh gündəliyindən imtina etsək, bu, Ermənistanın və Qarabağın sonu ola bilər", - demişdi. Bu cür sülhpərvər bəyanlara baxmayaraq baş nazir "sülh sazişi"nin imzalanmasını mümkün qədər ləngitmək üçün əlindən gələni edir və bu davranışın səbəbini onun qəti addımlar atmağa, öz üzərinə məsuliyyət götürməyə qadir olmamasında axtarmaq lazımdır". Bunu "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.***

A.Səmədov onu da bildirib ki, ötən il Brüsseldə əldə olunmuş razılığa görə sülh danışıqları və Bakı-Xankəndi arasında ermənilərin hüquq və təhlükəsizliyinin təminatı barədə danışıqlar ayrılıqda aparılmalı, bu formatlar bir-birinə qarışdırılmamalıdır: "Belə bir öhdəlik götürməsinə baxmayaraq hər dəfə sülh sazişi müzakirə olunarkən Ermənistan təmsilçiləri Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini gündəliyə çıxarır və bununla da prosesi uzatmağa çalışırlar. Heç təsadüfi deyil ki, parlamentin sədri Alen Simonyan açıq şəkildə bəyan edib ki, "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsi qoyulmasaydı, "sülh sazişi"ni indiyə qədər 3-4 dəfə imzalamaq olardı".

Bir neçə gün bundan əvvəl başlayan "humanitar yardım şousu" da sülh danışıqlarına zərbə vurmaq və yekun razılaşmanın imzalanmasını ləngitməyə yönəlib. Bir tərəfdən Ermənistan Azərbaycanın Qarabağ daxil olmaqla ərazi bütövlüyünü və suverenliyini qəbul edir, digər tərəfdən, Azərbaycan hakimiyyətinə xəbər vermədən, onun razılığını almadan 361 ton humanitar yükü "Laçın" nəzarət-buraxılış məntəqəsinin qarşısına gətirir. Üstəlik, 17 səfiri və 2 beynəlxalq təşkilat təmsilçisini yanına alaraq onları da "şou"nun ikinci dərəcəli, epizodik oyunçularına çevirir. Bütün bunlar göstərir ki, Nikol Paşinyanın sülh razılaşmasının imzalanmasını arzuladığı barədə söylədikləri erməni riyakarlığından başqa bir şey deyildir".

***GÜLYANƏ***

# Pulun var, “gələrəm”...



*Nə bilərdik ki, bir vaxtlar məşhur musiqili komediya filmimizdə - “O olmasın, bu olsun”da maraqla baxıb güldüyümüz “Pulun var, gələrəm” səhnəsi illər sonra həyat səhnəmizə çevrilib əvvəlki qəhqəhəmizi acı gülüşlə əvəzləyəcək... Belə isə buyurun, oxuyun. Müasir dövrümüzün utandırıcı nuanslarından biri haqqında- əksər qızların pullu, evi, maşını, vəzifəsi olan oğlan axtarmasından, beləsini tapmazsa, ailə qurmaq fikrində olmamasından danışmaq istəyirəm. Bəli, həqiqətən də bu, günümüzün həm utandırıcı, həm də düşündürücü məsələsidir. Haradan qaynaqlanir bu istək və arzular? Bunları gənclərin beyninə kim yükləyir? Onlar nəyə əsasən belə qənaətə gəlirlər?..*

Hansı ki, vaxt vardı, bu kimi gülünc fikirlər əsla ağıla gəlmirdi. İki insan bir-birini bəyənirdisə, anlayırdısa, aralarında məhəbbət yaranırdısa, burada oğlanın nə evinin, maşının olub-olmaması, nə də hansısa bir vəzifədə çalışıb-çalışmaması heç bir rol oynamırdı. Gənclər bu məsələləri həyatın axarına buraxırdılar. Bu barədə düşünməyə belə ehtiyac qalmırdı. Çünki təhsil alan hər bir gənc təbii ki, hansısa bir vəzifədə çalışacaq, qarşıda evi də, maşını da olacaq.

Lakin indi həyatımızda hər şey kimi, ailə qurmaq məsələsində də saymaqla bitməyən dəyişikliklər meydana çıxıb ki, bunların heç biri bizim ailə və milli mənəvi dəyərlərimizə uyğun deyil. Bu kimi arzu və istəklərlə biz əsrlərdən bəri qoruyub günümüzədək gətirib çıxara bildiyimiz ailə institutunu “müasir” şəklə salırıq. Lakin bu “müasirlik” əslində elə bir zərbədir ki, bunun acı nəticələrini illər sonra hiss edəcəyik.



### Kirayə evlərdə başlanan həyat...

Orta yaş qrupunda olan nəslin nümayəndələri demək olar ki, ailə həyatına kirayə evlərdə başlayıblar. Ya işlə, ya yaşayış yeri ilə bağlı, ya da müəyyən səbəblərdən ata-anasının yanında yaşaya bilməyən gənclər olub ki, ailə qurandan 2-3 gün sonra kirayələdikləri evlərə köçüblər. Lakin bunu problem edən olmayıb ki, bizim nə üçün evimiz yoxdur.

Bu gün çoxları kirayələrdə başlanan ailə həyatından gözəl, həm də unudulmaz xatirələrlə danışa bilər. Kirayələrdə dünyaya gələn övladlarından, bu evlərdəki səadət dolu günlərdən, xoşbəxtlikdən söhbət aça bilər. Çünki iki gəncin təmənnasız sevgisi, məhəbbəti ilə dolurdu bu evlər. Divarlara hopan bu ülvi hisslər o evin kirayəmi, yoxsa özünün olduğunu ağıla belə gətirmirdi. Ailə həyatına kirayə evdə başlayan biri kimi deyə bilərəm ki, həmin evlərdə heç də bu gün kirayələrdə yaşayanlardan fərqli həyat sürmürdük. Bəzən kirayə pulunu düzəldib ev sahibinə verə bilmirdik, bəzən gündəlik tələbatımızı ödəyə bilmirdik, süfrəmizə istədiyimiz nemətləri düzə bilmirdik. Bəzən əşyalarımızı yerləşdirməyə bir dolab tapa bilmirdik. Bu ayın maaşından növbəti ayın maaşınadək xeyli problemlərimiz olurdu. Bəzən ev sahibi evdən çıxmağı barədə xəbərdarlıq edirdi. Günlərlə yeni kirayə ev axtarırdıq. Çox əziyyətlə yeni kirayə mənzilimizə daşınırdıq. Lakin bunların heç biri “nə üçün evimiz yoxdur?” problemini yaratmırdı. Evimizin bir gün olacağı arzusu ilə həyatla mübarizə aparırdıq.

Daha sonralar isə gənclər evlərini də alırdılar. Kirayədən öz yuvalarına köçürdülər. Hər ikisi əl-ələ verib həyatla mübarizə apararaq, işləyib-çalışaraq bunu bacara bilir, istədikləri hər şeyə nail olurdular.

Həyatla mübarizə də maraqlı məsələdir axı. Mübarizə həyatı rəngarəng, mənalı edəndir. Düşünəndə ki, ailə qurduğun andan etibarən həm evin, maşının, evinin hər təminatı var, bəs sonra nə ilə mübarizə edib həyatı maraqlandıra bilərsən? Bunları söyləməkdə məqsədim heç də əvvəldən evin, maşının olmasına qarşı çıxmaq deyil. Əlbəttə, olarsa, rahatlıq da olar, əmək haqqı da ailənin digər ehtiyaclarına, istirahətinə sərf olunar. Lakin məqsədim bunlarsız da ailə həyatına başlamağın mümkün olduğunu izah etməkdir. Belə isə nə üçün əksər qızlar pullu, vəzifəli, evi, maşını olan oğlan axtarırlar?

### İlk tanışlıq, yoxsa ilkin axtarış?..

Ətrafımızdakı müşahidələrimizə, gördüklərimizə və şahidi olduqlarımıza əsasən deyə bilərik ki, hazırda qızlar var, onların məqsədi ailə quracağı oğlanla ilk tanışlıq deyil, onunla bağlı ilkin axtarışdır. Yəni qızlarımız var ki, ilk olaraq ailə quracağı adamın xasiyyəti, keyfiyyəti əvəzinə, ilkin axtarışlara çıxaraq onun evi, maşını, vəzifəsi, pulunun olub-olmaması ilə bağlı araşdırmalar aparır. Və yaxud da ailə qurmaqdan söhbət düşəndə açıq şəkildə bildirir ki, pulu, evi, maşını olmayan oğlanla evlənməyəcək.

Hələ qızlarımız var ki, tanış olduğu oğlanın qarşısına belə bir şərt də qoyur ki, biz ailəndən ayrı yaşamalıyıq. Çox halda isə onların tanışlığı elə bu təklifin oğlan tərəfindən rədd olunması ilə də sonalanır.

Bəs qızlarımızı bu cür düşünməyə vadar edən səbəblər



nələrdir? Əlbəttə ki, bəzi anaların səhv tərbiyəsi, bir də sosial şəbəkələrdir. Bu gün istənilən sosial şəbəkələrdə qızlara düzgün yol göstərməyən qruplar mövcuddur. Məsələn, “qadınlar qrupu” kimi. Bu qruplarda adlarını bildirməyən gənc qadınlar ailələrində olan problemləri bölüşürlər. Qayınana-gəlin, ər-arvad münasibətləri, oğlanın maddi vəziyyəti, qızların cehizi, ailə münasibətlərindəki nüanslar burada müzakirə olunur. Vurğulayım ki, gənc qızlarımızın əksəriyyəti də bu söhbətlərin iştirakçısıdır.

Bu yaxınlarda həmin söhbətlərə mən də bir nəzər saldım. Bir gənc xanım qayınanasından yamanca gileylənir və gənc qızlara çağırış edirdi ki, nəbadə qayınana yanında qalasınız, evlənəcəyiniz oğlanla şərtiniz ayrı yaşamaq olsun. Əks halda mənim başıma qayınanamın açdığı oyunlarla qarşılaşa bilərsiniz. Başqa bir gənc qadın isə yoldaşından gileylənir, qazancının az olmasından, bunun da maddi vəziyyətlərinə təsir etdiyindən danışırdı.

Ümumiyyətlə, belə qruplarda saysız bu cür söhbətlər gedir ki, bütün bunlar da qızlarımızda pullu, evi, maşını olan oğlan axtarmaq kimi istəklər formalaşdırır.

Qayınana ilə birlikdə yaşamaqdan qorxudulan qızlar bu problemin qarşısını əvvəldən almağa çalışır, ailə quracağı adamın qarşısına şərt qoyur ki, bəs evimiz ayrı olmalıdır. Qruplarda müzakirə mövzusu olan digər söhbətlər isə əksər qızlarımızı pullu, evi, maşını, vəzifəsi olan oğlanlar axtarmağa sövq edir.

### Xoşbəxtlik pul, ev, maşın, vəzifə deyil

Lakin şüurlu şəkildə anlamaq lazımdır ki, pul, ev, maşın, vəzifə heç də xoşbəxtlik deyil. Bunların hamısı maddiyyatdır ki, bunu daha sonra da əldə etmək mümkündür. Lakin ailə qurmaq məsələsində ilkin olan iki gəncin bir-birilərini anlamaları, sevmələri, bir-birinə təmənnasız hisslərlə bağlanmalarıdır. Bu gün kimlərsə ev, maşın, vəzifə axtarışına çıxıb ailə qurmasını ləngidirsə, bəs sabah ölkəmizdə bu, yeni ailələrin qurulmasına, uşaqların artımına mənfi təsir göstərəcək axı.

Yuxarıda qayınana-gəlin, ər-arvad münasibətlərinə toxunduq. Birincisi, anlamalıyıq ki, bu söylənənlər hər bir ailəyə məxsus deyil. Minlərlə ailə var ki, qayınana-gəlin bir evdə illərdir, yaşayır, heç bir problem olmadan. İllərdir ki, ailələr qurulur, ər-arvad arasında maddi imkanla bağlı heç bir söhbət olmur. Kimlərinsə sosial şəbəkələrdə başına gələnləri danışması o demək deyil ki, bunu oxuyan qızların hamısının taleyi belə olacaq. İkincisi, bəli, bu, bir faktdır, qayınanalar var ki, gəlini ilə münasibətlərində günahkar tərəfdir. Övladı yaşda olan gəlininə öz uşaqlarına əsla etmədiyini edir. Hansı ki, o da onun bir övladıdır. Saysız faktlar var ki, bu faktlara əsasən dağılan ailələrdə günahkar qayınanalardır.



Nə üçün hazırda qızlar ayrı yaşamaq istəyirlər? Buna səbəb olan qayınanaların düşünməyə ehtiyacları var. Bu problemin yaradıcısı çox halda onlardır. Bir böyük kimi düşünsələr ki, oğlumuzun sevdiyi qadın bizə oğlumuz qədər doğmadır, düşünürəm ki, belə problemlər də yaranmaz. Həm də bütün cəmiyyətə sirayət etməz ki, qayınana yanında yaşamaq məşəqqətdir.

Qızlarımızın həyat yoldaşlarının qazancının azlığına dözümsüzlüyünə, “rəfiqəmin ərinin maşını var, mənim niyə olmasın?”, “qonşu gəlin gündə bir paltar geyinir, mən də istəyirəm”, “qayınanam mənə bu sözü nə üçün dedi?” təfəkkürünə gəlincə isə, bunlar yanlışdır, əziz gənc qadınlar. Həyat yoldaşının qazancı az da olar, çox da. Maşını tez də ola bilər, gec də, vəzifəsi ola da bilər, olmaya da. Əsas məslə bütün bunlara tablaşıb ailəni qorumaq, onun dağılmasına bu kimi cılız məsələlərlə rəvac verməməkdir.

### Pulun var, “gələrəm”...

Bəli, pulun var, gələrəm söyləməyin özü qürursuzluğu göstərən bir amildir. Gənc bir qız həyat yoluna başlayacağı adamın qarşısına necə şərt qoya bilər ki, pulun, evin, maşının var? Bunları öz qüruruna sığışdırıb necə soruşmaq, öyrənmək olar ki, sonra qərar verəsən ki, onunla evlənmək olar, ya olmaz...

Elə buna görə də qürur insanın yaraşığı, ən gözəl keyfiyyətidir, unutmayaq. Qürur insanın özünün özünə olan hörmət hissidir. Onlarla ailə tanıyırıq ki, həyat yolçuluğuna bir nikah haqqında şəhadətnamə ilə çıxıb, indi təminatlı ailələrdir. Evləri də, maşınları da, pulları da var.

Lakin onlarla ailələrin də şahidi olmuşuq ki, pulu da yetərli olub, evləri, maşınları, hələ üstəlik vəzifəsi də olub, ancaq hazırda ən kasıb vəziyyətdə yaşan ailələr sırasındadır.

Deməli, əziz qızlarımız, evi, maşını, pulu, vəzifəni başlanğıcdan fikirləşmək, bunun axtarışına çıxmaq sadəcə gülüncdür. Gəlin beyinlərimizdə kök salmaqda olan “pulun var, gələrəm” istəyindən vaz keçib, həyat quracağımız insanda mənəvi dəyərləri axtaraq. Əgər bu, varsa, deməli, yeni həyata başlamaq olar. Sonra Yaradan bu ailənin ruzisini yetirəcək, gələcək üçün hər bir təminat olacaq. Səbir, dözüm, dəyanət Ulu Tanrının sevdiyi dəyərlərdir ki, bu xüsusiyyətlərə malik olanlara zaman-zaman hər şeyi bəxş edir. Gəlin, böyük səbirlə, təmkinlə gələcəyə baxaq. Ailələrimizi ülvi, saf hisslər üzərində quraq ki, onu heç kəs bizdən satın ala bilməsin. “Pulun var, “gələrəm” ifadəsi qoy həmişə hər bir azərbaycanlı ailəsinin elə filmdə baxıb güləcəyi bir səhnə olsun. Bu səhnə əsla düşüncələrimizə təmas etməsin. Yoxsa, itirəcəklərimiz çox olar...

**Mətanət Məmmədova**

MÜNASİBƏT

# “Qarabağdakı silahlılar ya ləğv olunacaq, ya da Azərbaycan ordusu tərəfindən təmizlənəcək”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Rusiyalı beynəlxalq ekspert Dmitri Verxoturov “Caliber” analitik mərkəzinə müsahibəsində Azərbaycan-Ermənistan nizamlanmasındakı vəziyyət və regionda gedən proseslər haqda maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*







***- Bu yaxınlarda Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Rusiya xarici işlər nazirinin iştirakı ilə keçirilən görüşünün nəticələrini necə gördünüz?***

- Başa düşdüyümə görə, Moskva görüşünün nəticələrinə görə heç bir böyük razılaşma olmayıb, söhbət iki xarici işlər nazirinin bir-birinə qarşı yığılmış müxtəlif suallarından gedirdi. Müvafiq olaraq, bu, daha çox gələcək sazişlərin hazırlanması ilə bağlı hansısa bir işgüzar görüş idi.

***- Necə düşünürsünüz, Moskva, Brüssel və Vaşinqton arasında regionda liderlik uğrunda şiddətli rəqabət fonunda Ermənistan-Azərbaycan münaqişəsinin həllində vasitəçilərdən hansının daha çox üstünlükləri var?***

- Müşahidələrimə görə, bir il əvvəl hansısa rəqabətdən danışmaq mümkün idisə, indi hadisələr inkişaf etdikcə bu, nədənsə azalıb. Bəli, Qərb siyasətçiləri Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün müəyyən addımlar atırlar, cəhdlər edirlər, lakin anlamaq lazımdır ki, bu problemin həlli Moskva ilə bağlıdır.

***- Moskva bu ilin sonuna qədər sülh müqaviləsinin imzalanmasını təşviq edəcəkmi?***

- Sülh sazişinə gəlincə, bunu proqnozlaşdırmaq çətindir, çünki vəziyyət kifayət qədər dəyişkəndir. Əgər, məsələn, yazdan baxanda demək olar ki, indiki günlərin birində sülh müqaviləsi imzalanacaqdısa, indi o, gələcəyə təxirə salınır. Və təbii ki, bütün vəziyyətə qeyri-müəyyənlik elementi daxil edən daimi manevrləri, nizamlanmanı dartıb çıxarmaq cəhdlərini görmək olar. Amma mən əminəm ki, Ermənistanın sülh müqaviləsi bağlamaqdan başqa alternativi yoxdur. İrəvanda necə əyilsələr də, necə dönsələr də, yenə də bu sənədi imzalayacaqlar.

***- Ermənistan hələ də Zəngəzur dəhlizinin açılmasına mane olur, bu isə Rusiyanın maraqlarına ziddir. Moskva niyə regionun sabitliyi naminə İrəvana lazımi təsir göstərmir?***

- Mənim təxminlərimə görə, Rusiya buna baxmayaraq, Ermənistanı öz müttəfiqi kimi görərək, Ermənistana qarşı kifayət qədər yumşaq xətt yürüdür və buna görə də hər şeyi bir anda almaq üçün rejimin sərt təzyiqinin qarşısını alır. Bu siyasət nəticəsində Zəngəzur dəhlizinin açılışı qeyri-müəyyən müddətə təxirə salınır ki, bu vəziyyətdə uduzan ermənilər özlərini tamamilə əzilmiş, alçaldılmış hiss etməsinlər. Moskva buna baxmayaraq, müəyyən diplomatik paritetlərə riayət edir. Ancaq hesab edirəm ki, bu nüansı nəzərə alsaq belə, Zəngəzur dəhlizi məsələsi bu və ya digər şəkildə öz həllini tapacaq, sadəcə olaraq, bir az vaxt və səbr tələb edəcək.

***- Bəs Hindistanın Ermənistana hərbi təchizatını necə şərh edərdiniz? Niyə İrəvan bölgəni hərbiləşdirir və bu tədarüklər Rusiyaya alternativdir?***

- Fakt budur ki, Hindistan silahlarının əhəmiyyətli hissəsi Rusiyanındır, çünki Hindistan Rusiyanın çoxdankı hərbi-texniki tərəfdaşıdır. Ona görə də tamamilə mümkündür ki, söhbət vaxtilə alınan bəzi Rusiya silahlarının yenidən başqa ölkəyə satışından gedir. Yaxud bu, hələ də Ermənistanın siyasi demarşıdır, erməni tərəfinin məhz KTMT-nin Qarabağla bağlı vəziyyətə və təşkilatın mövqeyinə görə qoyduğu qadağa- silahların tədarükünü əngəlləməyə başlaması ilə bağlıdır. Ona görə də İrəvan öz müstəqilliyini göstərmək qərarına gəlib, deyirlər, biz Hindistandan alacağıq. Amma düşünmürəm ki, söhbət ciddi tədarüklərdən gedir, ona görə də bu faktı regionun hərbiləşdirilməsi kimi qəbul etmək olmaz. Üstəlik, Ermənistanın Rusiya ilə hərbi tərəfdaşlığa alternativi yoxdur.

***- Ermənistan öz quldur dəstələrinin qalıqlarını Qarabağdan çıxarmaqdan imtina edir və bununla da 2020-ci ilin noyabrında qəbul edilmiş Üçtərəfli Bəyanatı pozur. Azərbaycanın həm Rusiya, həm də beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin suverenliyi prinsipindən başlayaraq, bu problemi təkbaşına həll etməyə haqqı varmı?***

- Düşünürəm ki, Ermənistan bu dəstələrə birbaşa nəzarət etmir ki, onlara Qarabağdan çəkilmək əmrini versin. İndi Ermənistanın onlara təzyiq göstərməsi, xüsusən də indiki vəziyyətdə çətin məsələdir. Hadisələrin inkişafı üçün iki mümkün ssenari var: ya vəziyyətin dəyişməsi səbəbindən bu silahlı birləşmələr ləğv olunacaq, ya da Azərbaycan qüvvələri sonda onları tamamilə təmizləyəcək.

***- Bu yaxınlarda Paşinyan Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanımağa hazır olduğunu bəyan etdi. Sizcə, bu nə deyir?***

- Əgər Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanımağa hazır olmasından danışırıqsa, bu o deməkdir ki, Nikol Paşinyan və hakim Ermənistan dairələri mövcud vəziyyəti, yəni 2020-ci il müharibəsi nəticəsində Qarabağı itirdiklərini etiraf etməyə başlayıblar və buna görə də, silahlıların Azərbaycandan yekun olaraq çıxarılmasının vaxtını və formalarını aydınlaşdırmaq qalır. Erməni tərəfi, təbii ki, bu məsələni yubatmağa, ləngitməyə çalışır, amma hər halda, bu, o qədər də çox şey gətirmir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
5 avqust
2023-cü il





# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kişilər bir olmur: döyüləni, söyüləni var...



*Bu ilin ilk 6 ayı ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "860 Dəstək Xətti"nə məişət zorakılığına məruz qalan 34 kişi müraciət edib. "Dəstək Xətti"nə müraciət edən qadınların sayı isə 112 olub. Müraciətlərin 23,3%-i kişilər, 76,7%-i isə qadınlar tərəfindən edilib.*





Kişilərə qarşı zorakılıq kişilərə və ya oğlan uşaqlarına qarşı edilən zorakılıqdır. Ümumiyyətlə, kişilər tez-tez həm zorakılığın qurbanı, həm də zorakılığı tətbiq edən rolunda olurlar. Kişilərə qarşı cinsi zorakılığa əksər cəmiyyətlərdə qadınlara qarşı zorakılıqdan fərqli yanaşılır və beynəlxalq hüquq tərəfindən böyük ölçüdə tanınmır. Lakin kişilərin qadınlar tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalması qəbul edilir. Kişilərə qarşı zorakılıq həm kişilər, həm də qadınlar tərəfindən törədilsə də, ABŞ Ədliyyə Statistikası Bürosunun məlumatlarına görə, kişilərin kişiləri öldürdüyü qətllər ümumi qətllərin 65,3%-ni təşkil edir.

Ailədə zorakılıq bütün cəmiyyətlərin ortaq problemdir. Bu sahədə aparılan araşdırmalar dünyada hər dörd qadından birinin və hər altı kişidən birinin ailədə zorakılığa məruz qaldıqlarını göstərib. Zorakılıq özünü həm fiziki, həm mənəvi, həm də iqtisadi tərəfdən göstərir. Ailədaxili zorakılığa məruz qalanlar arasında son illər kişilərin sayının artması halları da var.

Ailədə zorakılıq bir çox formada təzahür edə bilər, bunları sıralasaq o zaman aşağıdakı siyahı əmələ gələcək. Yumruq atma, təpikləmə, söyüş, hər hansı soyuq alətlə vurma, odlu silahlarla qorxutma və ya yaralama, zorla evləndirilmə, cinsi əlaqəyə məcbur etmə, evdə dustaq etmə və s. Bunlardan əlavə, ailə üzvlərinə qarşı səs ucaltmaq, başqalarının yanında hörmətdən salmaq, qürurunu qırmaq da zorakılıq sayılır. İqtisadi imkanların məhdudlaşdırılması, yeni maddi sıxıntıya salmaq da ailədaxili zorakılığın bir növü hesab edilir.

Nədənsə, ailədə zorakılıqdan söz düşəndə hamının gözünün önünə əri tərəfindən döyülmüş, üz-gözü göyərmiş, paltarları cırılmış qadın surəti gəlir. Bizim cəmiyyətdə kişilərin ailədə zorakılığa məruz qalmasına inanmırlar, daha dəqiq ifadə etsək əksəriyyət bunu mümkünsüz hesab edir. Bizim ölkəmizdə də zaman-zaman mətbuata, hüquq-mühavizə orqanlarına məlum olan zorakılıq hadisələri olur, amma etiraf etmək lazımdır ki, ölkəmizdə hər 100 zorakılıq halından yalnız bir neçəsi aşkara çıxır. Nə Statistika komitəsinin, nə də AQUPDK-nin verdiyi rəqəmlər reallığı əks etdirmir.

Kişilərin zorakılıq gördüyü cəmiyyətlərdə isə çox vaxt fiziki qüsuru olan kişilər və qocalar bundan əziyyət çəkir. Bu, o demək deyil ki, onlara fiziki güc tətbiq edilir, yox, sadəcə sözlə də zorakılıq olur. Həmçinin, bu iş qabiliyyətini itirmiş və ya yaşlanmış kişilərin ən çox raslaşdığı durumdur. Bəzi qadınlar mübahisə zamanı kişiyə hansısa əşyanı atmaqdan belə çəkinmirlər. Hər hansı bir əşya atmaq, alçaldıcı ifadədən istifadə etmək, təhqir etmək də ailədaxili zorakılıq hesab olunur.

Kişilər ailədə zorakılıq gördüyünü etiraf etmirlər, çünki bu, ətrafın stiqmasına səbəb olur. Amma bəzən də olur ki, bəzi kişilər artıq ətrafda hər kəs bildiyi üçün həyat yoldaşı tərəfindən döyüldüyünü etiraf edir. Əksər vaxtlarda kişilər potensial zorakılıq tətbiq edən hesab edilir. Bunu biz qadınlar əsasən, bioloji olaraq daha güclü olmaları ilə yozuruq. Bəzi hallarda kişilər ailədə daha çox "rəis"lik etmək və hər şeyi öz nəzarəti altına almaq istədikləri üçün zorakılıq tətbiq edirlər. Bəzi hallarda isə qazdıqları quyuya özləri düşürlər. Yəni onların hegemonluq istəyi özlərinin zorakılığa məruz qalmasına yol açır. Kişinin "rəis"liyindən, davranışlarından bezən qadın da ona eynilə davranır.

Başqa səbəblər də var, maddi vəziyyətin zəif olması, psixoloji vəziyyət, həyatından narazı olması və s. Bizim cəmiyyətdə əvvəllər kişinin zorakılığa məruz qalması nadir müşahidə edilsə də, artıq sıradan, adi bir haldır. Düzdür, onlar qadınlar kimi döyülmür, işgəncəyə məruz qalmır, daha çox mənəvi zorakılığa məruz qalırlar. Amma zorakılıq elə zorakılıqdır, fiziki, mənəvi, psixoloji, iqtisadi – hansı cür olursa olsun. Zorakılığa məruz qalan da, zorakılığı tətbiq edən də kim olursa-olsun, hansı cinsdən olursa-olsun, qınanılmalı, stiqmaya məruz qoyulmalıdır.

***Lalə Mehralı***

# "Neftçi" - "Beşiktaş" oyunu bu stadionda keçiriləcək

***UEFA Konfrans Liqasının üçüncü təsnifat mərhələsinin "Neftçi" - "Beşiktaş" oyununun məkanı müəyyənləşib. Qol.az xəbər verir ki, bu barədə "Neftçi"nin baş icraçı direktoru Fərrux Mahmudov özünün sosial şəbəkə hesabında məlumat verib.***

Oyun "Neftçi" Arena" stadionunda (keçmiş 8-ci kilometr qəsəbəsi stadionu) keçiriləcək. Bu, "Neftçi"nin yeni ad alan arenada ilk matçı olacaq. UEFA "Beşiktaş"la oyunun avqustun 10-da Bakıda keçiriləcəyini təsdiq edib.



## Bu il I ixtisas qrupu üzrə ən yüksək bal 693, IV ixtisas qrupu isə 678,2 olub



Bu il I ixtisas qrupu üzrə ən yüksək bal 693, IV ixtisas qrupu isə 678,2 olub. Bu barədə SİA-ya Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki,imtahanda I ixtisas qrupu üzrə ən yüksək nəticəni (397 bal) 2 nəfər –Şəmkir rayon Fərman Salmanov adına şəhər orta məktəbinin və Kürdəmir rayon 2 saylı şəhər orta məktəbinin məzunları göstəriblər. I ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə ən yüksək nəticə isə Bakı şəhər 169 saylı orta məktəbin məzununa məxsusdur. O, imtahanın ikinci mərhələsində 395.5 bal, birinci mərhələsində isə 297.5 bal toplayıb. Beləliklə, I ixtisas qrupu üzrə ən yüksək nəticə 693 baldır.

Bu imtahanda IV ixtisas qrupu üzrə ən yüksək nəticəni (392.5 bal) Sumqayıt şəhər 11 saylı orta məktəbinin məzunu göstərib. IV ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə ən yüksək nəticə də həmin abituriyentə məxsusdur. O, imtahanın birinci mərhələsində isə 285.7 bal toplayıb. Beləliklə, IV ixtisas qrupu üzrə ən yüksək nəticə 678.2 baldır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000